www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18-26 mart 2017-ci il Şənbə № 60 (6674) Qiymәti 60 qəpik

Novruz Bayramınız Mübarək!

## Gündəm

**Qubad İbadoğlu Azərbaycanın MSŞT-dən çıxmasının pərdəarxasını danışdı**



"Hökumət nümayəndələri həmin iclasa hazır bəyanatla gəlmişdilər"

yazısı səh.5-də

**Əfv edilən məhkumlar həbsxanadan buraxıldılar**

yazısı səh.3-də

**ANS-in yayımı bərpa olacaqmı...**

yazısı səh.4-də

**Xalq artistinin iki ailə üzvünün ölümünə səbəb olan məmur oğlu əfvə necə düşüb...**

yazısı səh.7-də

**"ABŞ-Türkiyə yaxınlaşması hər iki ölkə üçün faydalı olacaq" - ekspert**

yazısı səh.9-da

**Avropa üçün prioritet - demokratiya, yoxsa korporativ maraqlar?**

yazısı səh.7-də

**Deputat Azərbaycanın adı qarışan 56 milyonluq rüşvət qalmaqalından danışdı**

yazısı səh.13-də

**Vəzifəyə müsabiqə yolu ilə təyinat sui-istifadə hallarına yol aça bilər**

yazısı səh.7-də

**Keçmiş polis narkotiklə tutuldu**

yazısı səh.14-də

**Satışda olan saxta araqlara diqqət: onları içən ölə bilər**

yazısı səh.15-də

**ASAN Xidmətə işə adam "düzəldən" dələduz tutuldu**

yazısı səh.14-də

## Məhbusun türmədə ölməsi Ermənistanı qarışdırdı

# SƏRKSİYANIN ÖLÜMÜ SƏRKİSYAN REJİMİNİ BÖHRANA SOXDU - DÜŞMƏN ÖLKƏ ÇALXALANIR

2 aprel yaxınlaşdıqca işğalçı ölkədə siyasi ehtiraslar artır, atəş səsləri eşidilməyə başlayıb; hərbi müxalifət iqtidarı silahlı çevrilişlə hədələdi; Kremlin dəstəyi Ermənistan prezidentini xilas edəcəkmi? Azərbaycan üçün unikal şans pəncərəsi açılır...




yazısı səh.8-də

## Hökumət deputatların gözlənilməz etirazı ilə üzləşdi - sərt tənqidlər

**Milli Məclis üzvlərindən illik hesabata kəskin reaksiya:** "Bazarlar od tutub yanır"; "Banklar vətəndaşı soyur"; "Millətin belini qırırıq"; "Bu məsələlərdə hökumətin günahı var. Biz bunu deyəndə qəbahətmi olur?"

yazısı səh.10-da



**Prokurorun 13 il həbs istədiyi vitse-admiral Şahin Sultanova şərti cəza verildi**

yazısı səh.2-də



**Aynur Camalqızı yazar Mövludun intiharı barədə bilinməyənləri danışdı**

yazısı səh.6-da



**"Qara kəmər"dən ağ mundirdə çıxan general - Zakir Nəsirov**

yazısı səh.3-də



# Prezident Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi

**Azərbaycan prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

**APA-nın məlumatına görə, təbrikdə deyilir:**

**"Əziz həmvətənlər! Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə can sağlığı və xoş əhval-ruhiyyə arzulayıram.**

**Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlayıb bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunub. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.**

**Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Qloballaşma dalğasının geniş vüsət aldığı və dünyanı sürətli dəyişikliklərə məruz qoyduğu bir vaxtda o, tükənməz mənəvi gücü sayəsində dini-mənəvi dəyərlərimizə, tarixi-mədəni irsimizə bağlılığımızın təntənəsinə çevrilib. Yaz bayramı yeniləşdirici ruhu və ılıq nəfəsiylə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti var. Ən yüksək dəyərləri özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer alıb.**

**Mən torpaqlarımızın müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə bayram təbriklərimi yetirirəm. Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini bir daha ehtiramla yad edərək onlara Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.**

**Dünya azərbaycanlılarının həmrəyliyinin rəmzi Novruz bayramını xaricdə yaşayan soydaşlarımızın milli məfkurə işığında bizimlə birgə qeyd etmələri onlarda yurdumuza bağlılıq hisslərini gücləndirir. Arzu edirəm ki, öz gəlişiylə bu gözəl bayram hər evə, hər ocağa bol ruzi-bərəkət gətirsin və hamınıza yeni sevinclər bəxş eləsin. Xalqımızın əziz Novruz bayramı mübarək olsun!".**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Azay Quliyev aprel şəhidlərinin ailə üzvləri ilə görüşdü

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında aprel döyüşlərində şəhid olan hərbiçilərimizin Bakı və Sumqayıt şəhərlərində yaşayan ailə üzvləri ilə görüş keçirilib.**




Musavat.com xəbər verir ki, toplantıda çıxış edən Şura sədri, deputat Azay Quliyev ölkə prezidenti cənab İlham Əliyevin aprel şəhidlərinin şücaətini yüksək qiymətləndirdiyini və onu tarixi qəhrəmanlıq adlandırdığını deyib. Bu günki görüşün cənab prezidentin aprel şəhidlərinin əziz xatirələrinin və ailələrinin daim yüksək diqqətdə saxlanılması ilə bağlı tapşırığının Şura olaraq icrası məqsədi ilə keçirildiyini vurğulayıb. Azay Quliyev Ermənistanla atəşkəsin elan olunduğu 23 il ərzində ilk dəfə olaraq işğal altında olan torpaqlarımızın bir qisminin məhz Ali Baş Komandanın əmrlərini böyük qəhrəmanlıqla icra edən ordumuzun, xüsusi ilə aprel şəhidlərinin şücaəti sayəsində düşməndən azad olunduğunu bildirib: "Sizin övladlarınız aprel döyüşlərinin qəhrəmanlarıdır. Bu qəhrəmanlar və həmin həlledici günlərdə ayağa qalxaraq ordusu ilə birgə olduğunu göstərən, cəbhəyə axışan xalqımız dünyaya göstərdi ki, biz torpaqlarımızı düşmən işğalından azad etməyə qadirik. Müəyyən dairələrin Azərbaycana qarşı istifadə etməyə çalışdığı "uduzmuş tərəf" sindromunu da məhz aprel döyüşlərinin qəhrəmanları aradan qaldırdılar. Bu gün yalnız siz deyil, bütün xalqımız aprel şəhidləri ilə qürur duyur".

Görüşdə çıxış edən **Şura üzvü, "Tərxis Olunmuş Hərbiçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli** dövlətin şəhid ailələrinə, o cümlədən aprel döyüşlərində şəhid olan hərbiçilərimizin ailələrinə olan dövlət qayğısından, onların adlarının əbədiləşdirilməsi üçün atılan addımlardan danışıb və Şuranın bu istiqamətdə gördüyü işlər barədə məlumat verib.

Görüşdə çıxış edən aprel şəhidlərinin valideynləri torpaqlarımızın işğaldan azad olunması üçün hər an vuruşmağa hazır olduqlarını qeyd ediblər. Onlar həmçinin övladlarının adlarının əbədiləşdirilməsi üçün əlavə tədbirlərin görülməsi haqqında fikirlərini çatdırıblar.

Şura sədri Azay Quliyev hər zaman şəhid ailələrinə diqqət göstərilməsinin vəzifə borcları olduğunu deyib və görüşdə səsləndirilən təkliflərin araşdırılması və aidiyyəti qurumlara təqdim olunması üçün müvafiq addımların atılacağını bildirib.



## Cavanşir Feyziyevin kitabı qırğız dilində...

**Milli Məclisin üzvü, Aİ-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin sədri Cavanşir Feyziyevin "Türk Dövlətləri Birliyi: Qlobal inteqrasiyanın Avrasiya modeli" adlı kitabı Qırğızstan Respublikasında qırğız dilində nəşr olunub. Kitab Bişkek şəhərində fəaliyyət göstərən "Turar" nəşriyyatı tərəfindən çapdan çıxıb. Azərbaycanda 2014-cü ildə işıq üzü görmüş monoqrafiya həm ölkədə, həm də qardaş türk respublikalarında ciddi maraq doğurub.**

Türk dünyasının tarixi taleyindən, bu gün dünyada türk sivilizasiyasının varlığını təmin edən ümumtürk dəyərlərindən bəhs edən elmi araşdırmada eləcə də müasir qloballaşma dövründə türk dünyasının qarşısında duran problemlərdən, müstəqil türk dövlətlərinin beynəlxalq siyasi-iqtisadi məkanda vahid platformadan çıxış etməsi zərurətindən danışılır.

Kitabda həmçinin Türk Dövlətləri Birliyinin qlobal siyasi - iqtisadi, social-mədəni və humanitar birlik kimi təşəkkül tapmasının məqsədləri, prinsipləri və strategiyası irəli sürülür. Əsər bu günədək ana dilindən başqa türk, qazax, rus, boşnak və qırğız dillərində 10 mindən artıq nüsxədə yayılıb və keçən il Astanada keçirilən "Böyük Çöl" ictimai-siyasi elmlər Forumunda Beynəlxalq Türk Akademiyasının qızıl medalına layiq görülüb.



## Zakir Həsənov Çingiz Qurbanovun 40 mərasimində iştirak edib

**Martın 17-də Milli Qəhrəman Çingiz Qurbanovun 40 mərasimi keçirilib. APA-nın şimal bürosunun verdiyi məlumata görə, mərasimdə müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edib. Milli Qəhrəmanın 40 mərasimində rayonun müxtəlif təşkilat və qurumları əməkdaşları qatılıb.**

Bu gün həmçinin, Çingiz Qurbanovun haqqında yazılmış "Çingiz dastanı" kitabının da təqdimatı olub.

Qeyd edək ki, Çingiz Qurbanov 2016-cı il dekabrın 29-da şəhid olub. Onun nəşi 2017-ci il fevralın 5-də qarşı tərəfdən alınıb.

Fevralın 7-də Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi barədə sərəncam imzalayıb.

## Bayram Hüseynzadə Bakı Mühəndislik Universitetinə prorektor təyin edildi

**"Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Bayram Hüseynzadə Bakı Mühəndislik Universitetinə prorektor təyin edilib. B.Hüseynzadənin prorektor təyinatı ilə bağlı əmr martın 15-də imzalanıb. O, humanitar məsələlərə nəzarət edəcək. Qeyd edək ki, Bayram Hüseynzadə uzun müddət Təhsil Nazirliyində İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışıb.**

Xatırladaq ki, Bakı Mühəndislik Universiteti ölkə başçısının sərəncamı ilə 2016-cı ilin noyabrında keçmiş Qafqaz Universitetinin bazasında yaradılıb. Bakı Mühəndislik Universitetinin rektoru hazırda Havar Məmmədovdur.

❑ Günel MANAFLI



## Vitse-admiral Şahin Sultanova şərti cəza verildi

**Müdafiə Nazirliyi Hərbi Dəniz Qüvvələrinin (HDQ) sabiq komandanı, vitse-admiral Şahin Sultanovun cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.**

APA-nın məlumatına görə, hakim Həbib Həsənovun sədrliyi ilə keçən məhkəmə prosesində hökm oxunub. Məhkəmənin hökmü ilə Şahin Sultanov 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun cəzası 3 il sınaq müddəti olmaqla şərti hesab edilib.

Digər təqsirləndirilənlər Qalib Hacıyev 2 il sınaq müddəti təyin edilməklə 5 il şərti cəzaya məhkum edilib. Həbsdə olan Kazım Əsgərovun barəsində isə şərti cəza təyin edilib. O, məhkəmə zalından azadlığa buraxılıb. Kamandar Paşayev, Vüqar Hacıyev, Əziz Xıdırov da şərti cəzaya məhkum edilərək, həbsdən azad ediliblər.

Qeyd edək ki, dövlət ittihamçısı Ş.Sultanovun 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Respublika Hərbi Prokurorluğunun yaydığı məlumata görə, HDQ-də aparılan yoxlamalar zamanı qanun pozuntuları aşkarlanıb. Qanunazidd əməlləri törətməkdə təqsirli bilinən bir neçə nəfər, eləcə də HDQ-nin sabiq komandanı, vitse-admiral Şahin Sultanov təqsirləndirilən şəxs qismində cəlb edilməklə, Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında 2015-ci il aprelin 23-də Bakı Hərbi Məhkəməsinin qərarı ilə barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

**Ş.Sultanov Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə təqsirli bilinir. Bir müddət əvvəl Bakı Hərbi Məhkəməsində Ş. Sultanov barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasına dair vəsatətə baxılıb. Prosesdə həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsi barədə qərar qəbul edilib və o, azadlığa buraxılıb.**

**Bildiriş**

**Novruz bayramı ilə əlaqədar olaraq "Yeni Müsavat" qəzetinin növbəti sayı martın 27-də işıq üzü görəcək.**

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017

# “Qara kəmər”dən ağ mundirdə çıxan general - Zakir Nəsirov

## Eldar Mahmudovun rəhbərliyi altında DİN generalının şərlənərək ömürlük həbsə göndərilməsindən 12 il sonra haqq öz yerini tutdu...

**Martın 16-da imzalanan əfv sərəncamında adı olanlardan biri də 2005-ci ildən həbsdə olan DİN-in Baş Cinayət-Axtarış İdarəsinin sabiq rəisi general Zakir Nəsirovdur. Sərəncama əsasən, Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin 2007-ci il 16 yanvar tarixli hökmü ilə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş Zakir Nəsirovun cəzası 15 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib.**


Zakir Nəsirov

Z.Nəsirov həbs edilən andan onun verilən ittihamlar üzrə günahsız olduğu bilinirdi. Bu gün artıq olmayan, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyində (MTN) 2015-ci il oktyabrın 17-də baş tutan və dövlət başçısının sərəncamı ilə nazir də daxil olmaqla, nazirliyin bir sıra yüksək vəzifəli şəxslərinin vəzifədən çıxarılması, həbsi ilə nəticələnən xüsusi əməliyyatdan sonra bu qurumla əlaqəli bir çox işlərin yenidən araşdırılacağına ümidlər yaranmışdı. Bu sırada ilk yerdə Eldar Mahmudovun rəhbərliyi altında baş tutan, Zakir Nəsirovun şərlənərək ömürlük həbsə göndərilməsi ilə nəticələnən “Qara kəmər” əməliyyatı ilk yerdə gəlirdi. MTN-dəki xüsusi əməliyyatdan sonra bu istiqamətdə müəyyən addımlar da atılmışdı. “Qara kəmər”in “baş qəhrəmanı” Hacı Məmmədovun bacısı Arifə Məmmədova “Yeni Müsavat”a müsahibəsində demişdi ki, qardaşı vəkil tutub və yenidən ifadə vermək istəyir. A.Məmmədova qardaşının 10 il ərzində Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanasında Eldar Mahmudovun hədə-qorxu və təzyiqləri altında saxlanıldığını açıqlamışdı. Bildirirdi ki, məhz bu məqama görə Hacı Məmmədov məhkəmədə həqiqəti deyə bilməyib. A.Məmmədova qardaşının həbsinə qədər tabeçiliyində olduğu DİN-in Baş Cinayət-Axtarış İdarəsinin sabiq rəisi, hazırda iş üzrə ömürlük həbsdə olan general Zakir Nəsirov haqda da fikirlərini açıqlamışdı. Arifə Məmmədova demişdi ki, Zakir Nəsirovun bu işlə heç bir əlaqəsi yoxdur, Zakir Nəsirov süni olaraq bu işə cəlb edilmişdi. Bundan sonra Hacı Məmmədov vəkili Afət Qazıyeva vasitəsilə Ali Məhkəməyə müraciət etdi və “Qara kəmər” işinin yenilənməsini, onun dəstəsi tərəfindən törədilən cinayətlərlə bağlı yenidən ifadə vermək istəyini açıqladı. Bu müraciətdən sonra belə fikir yaranmışdı ki, iş mütləq şəkildə yenidən istintaq ediləcək və Hacı Məmmədovun müraciəti üzrə ədalətli, obyektiv məhkəmə araşdırması keçiriləcək. Amma bu baş tutmadı.

Zakir Nəsirovu azadlığa aparan yolu kəsdilər. Eldar Mahmudovun vəzifədən qovulması da “Qara kəmər”lə bağlı müəmmalı məqamların araşdırılmasına, 11 il əvvəl həbs edilən zaman iş üzrə günahsız olduğu bilinən Zakir Nəsirovun azad edilməsinə yol açılmadı. Ümumiyyətlə isə H.Məmmədovun ifadə vermək istəməsinin qarşısının Ali Məhkəmə səviyyəsində alınmasının səbəbi ictimaiyyətə aydın şəkildə izah olunmadı. Maraqlı bir situasiya yaranmışdı: adamları oğurlayan, sifarişlə öldürən, pula görə qulaqlarını kəsib valideynlərinə göndərən bir dəstənin başçısı danışmaq, həqiqəti söyləmək istəyir, amma Azərbaycanın Ali Məhkəməsi ona “yox” deyirdi, günahsız insanların azad olunmasının qarşısını alırdı...

Bilənlər bilir ki, Zakir Nəsirov 2005-ci ildə həbs göndərilməzdən əvvəl 3 dəfə MTN-ə çağırılıb ona öz rəhbərliyi əleyhinə təqdim olunan ifadlərin altına imza atmasını təklif etmişdilər. General isə bu təkliflə razılaşmamış, hər dəfə ona fikirləşmək üçün vaxt vermişdilər. Sonuncu “yox” cavabından sonra isə onu qandallayıb əvvəlcədən vəd etdikləri kimi ömürlük həbsə yollamışdılar.

Z.Nəsirov isə ümidini heç vaxt itirməmişdi. Ara-sıra sorağı mətbuat səhifələrinə çıxır, günahsız olmasını hər dəfə diqqətə çatdırırdı. O, həbsə general olaraq göndərilmişdi, oradan general olaraq da qayıtmaqdadır. Başı dik, alnıaçıq...

Onu həbs edənlər isə azadlıqda olsalar da, dünya boyda həbsxananın içindədirlər. Əməlləri dəmir barmaqlığa çevirilib qarabaqara ətraflarındadır. Səksəkə içində həyatlarını başa vuracaqlar...

**Zakir Nəsirov 8 iyun 2005-ci ildə həbs edilib. İbtidai istintaq zamanı və 2006-cı ildən 2008-ci ilə qədər davam edən proses boyu onun “Qara kəmər”lə əhatə olunan cinayətlərə aidiyyəti sübuta yetirilməyib. Üstəlik, Eldar Mahmudov vəzifəsindən çıxarılandan sonra Hacı Məmmədov vəkili Afət Qazıyeva vasitəsilə Zakir Nəsirov haqda ibtidai istintaq və məhkəmələri zamanı yalan ifadələr verdiyini bildirib. Z.Nəsirovun həbsdə olmasının yeganə səbəbi də məhz Hacı Məmmədovun qərəzli və ziddiyyətli ifadələri idi. Onun bu ifadələrindən başqa, nə istintaqa, nə də məhkəmədə Z.Nəsirov barəsində heç bir sübut yox idi. Əgər Hacı Məmmədovun ifadəsinə hüquqi qiymət verilsəydi, bu gün Zakir Nəsirov Qobustan həbsxanasında olmazdı... Sevindirici hal odur ki, gec də olsa Zakir Nəsirov “Qara kəmər”dən ağ general mundirində çıxacaq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Əfv edilən məhkumlar azad edildi

**Azərbaycan Prezidenti İlham Əliyevin martın 16-da imzaladığı “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” sərəncamın Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən martın 17-də icrasına başlanılıb.**





Musavat.com xəbər verir ki, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 412 nəfər Sərəncama əsasən cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş iki nəfərdən birinin cəzası 25 il, digərinin isə 15 il müddətinə azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənib.

Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş dörd nəfər cəzadan azad olunub. Bir nəfər islah işləri cəzasından, üç nəfər isə cərimə cəzasından azad edilib. Əfv olunan şəxslər arasında xarici ölkələrin vətəndaşları da var.

Sərəncamın icrası Ombudsman Aparatının, dövlət qurumlarının, ədliyyə nazirinin yanında fəaliyyət göstərən İctimai Komitənin, insan hüquqlarının müdafiəsi təşkilatlarının, habelə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Penitensiar Xidmətin tabeliyindəki cəzaçəkmə müəssisələrində həyata keçirilir. Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin məsul əməkdaşları məhkumların saxlanıldıqları cəzaçəkmə müəssisələrində olub, Sərəncamın vaxtında icrasını təmin ediblər.

Prezident tərəfindən əfv olunmuş şəxslər Penitensiar Xidmətin tabeliyindəki cəzaçəkmə müəssisələrindən martın 17-də artıq azadlığa buraxılıblar. Penitensiar Xidmətin rəhbərliyi cəzaçəkmə müəssisələrində əfv edilmiş şəxslərə azad olunmaları barədə buraxılış vərəqələrini təqdim edib və onlara bundan sonrakı həyatlarında cinayətdən uzaq durmağı tövsiyə edib.

**Azadlığa çıxan şəxslər və onları qarşılamağa gəlmiş ailə üzvləri, yaxınları göstərdiyi humanistliyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər:** “Bu əfv sərəncamı bizim bayramımızı ikiqat sevincli etdi. Ölkə başçısına təşəkkür edirəm. Dünən axşam bizə zəng vurub, əfvlə bağlı məlumat verəndən bəri sevincimizdən gözümüzə yuxu getməyib”.

❑ **Məhəmməd TÜRKMƏN**

# İşıqtutan və aşgətirənləri də saysaq...



**Samir SARI**

**“Son 10 ildə ölkədə 1 milyon 267 min iş yeri açılıb”. Bunu baş nazir Artur Rasi-zadə parlamentdə hesabat verərkən deyib.**

Əslində həmin cümlənin mabədi də var və o belədir: “Bu illər ərzində ölkədə 3 min məktəb, 600 xəstəxana, 400 turizm və mədəniyyət komplekslər təmir olunub, 50-dən artıq xəstəxana tikilib”.

Təmir olunan və tikilən obyektlərin sayı ilə bağlı səslənən rəqəmlərlə işim yoxdur, amma açılan iş yerlərinin sayı adama maraqlı görünür.

Əstəğfürullah, qocaman baş nazirin səsləndirdiyi rəqəmin həqiqiliyini şübhə altına almıram, əslində o, ən pis halda Statistika Komitəsinin yalançısı ola bilər. Amma yenə də bir milyon iki yüz altmış yeddi min iş yerinin açılması sıradan bir şey deyil.

Bu, ilk növbədə o deməkdir ki, 10 il öncəyə qədər bir milyon üç yüz min vətəndaşımız işsiz imiş. 8 milyonluq (o vaxt 8 idi, sonradan artıb 9 olduq) əhali üçün bu xırda rəqəm deyil. Çünki bu 8-9 milyon əhalinin yarıdan çoxu uşaqlar, məktəblilərdir, onlar da ki, bildiyimiz kimi, əmək mükəlləfiyyətinə malik deyillər. Yerdə qalır 3-4 milyon yetkin şəxs, bunlardan da 1 milyonu təqaüdçülərdir. Axıra qalan rəqəmdən də Rusiyaya, Ukraynaya, ora-bura işləməyə gedən milyonlarla qastarbayteri çıxsaq, elə görünər ki, 10 il öncəyə qədər ölkədə işləyən olmayıb, ya çox az olub. (Rəqəmlərlə işləyərkən dəqiq olmaq lazımdır).

İndiki gənclər bilməz, sovet dövləti dağılandan sonra ölkədə çox pis işsizlik vardı. Kişilər evdən çıxır, tay-tuşlarını toplayıb bir çayxanada oturur, səhərdən axşama qədər domino, nərd çırpırdılar. Bir az intellektual işsizlər isə şahmat oynayırdı. Adamlar elə peşəkarlaşmışdılar ki, dominoda masa üzərinə çırpılan daşların üç dövrəsi bitəndən sonra artıq altı qoşanın kimin əlində öldürüləcəyini bilirdilər. Stəkanın içindən atdığı zəri belə qoşalaya bilən, “cüt beş”, “dörd çahar” atanlar vardı. Bəlkə də Yevlağın çayxanasında hər gün 7-8 saat şahmat oynayan adamlardan birini qrossmeysterlərin beynəlxalq yarışına göndərsəydik, gedib minimum hindistanlı Vişvanatan Anandı məğlub edərdi. Yəni insanlar bu dərəcədə ustalaşmışdılar. Hamısı da işsizlikdən, bekarçılıqdan idi.

Amma 2005-ci ildən sonra yeni iş yerləri açılması prosesinə start verildi. Statistika Komitəsi yüz minlə başladı, hər il artıra-artıra getdi. Allahdan, çayxanadakı işsiz peşəkarların sayı da azala-azala gedirdi. Arada biz, jurnalistlər və oxucular hesabı itirdik. Bu hadisə hardasa 1 milyon yeni iş yeri civarında oldu. Dünənə qədər əlimizdə müvafiq statistika yox idi, işin axırının necə olduğunu bilmirdik. Yalnız dünən Artur müəllim deyəndən sonra bildik ki, yeni açılan iş yerlərinin sayı 1 milyonda durmayb, o rəqəmi hələ 267 min də aşıb.

İndi çox adam çox söz deyə bilər. Kimsə bu göstəricinin həqiqiliyinə inanmaz, kimsə bu rəqəmdə mövsümi iş yerlərinin də olduğunu deyər. Ancaq qeydə alınmayan iş yerlərini də hesablamaq lazımdır. Məsələn, ölkədə yüzlərlə, bəlkə də minlərlə şadlıq sarayı var, onların hamısında ofisiantlar çalışır. Əmin edirəm ki, onların çoxu rəsmi işçi kimi qeydə alınmayıb. Bunun bəyə aş gətirmək üzrə ixtisaslaşan, nəticədə yaxşı pul qazanan ofisiant-rəqqasları da var (hər bir sıravi ofisiant gələcəkdə böyüyərək aşgətirən olmaq kimi bir arzuya malikdir). Bu yüzlərlə iş yeri deməkdir. Araşdırsaq, məlum olar ki, videoçəkənlərin yanındakı şnurdaşıyanların heç birinin əmək müqaviləsi yoxdur və onlar işçi kimi qeydə düşməyiblər. Eyni fikirləri fotoqrafın işıqtutanlarına da şamil etmək olar. Hələ təkərqaraldanları da nəzərə almaq lazımdır.

**Yeri gəlmişkən, bu şəxsləri də vergiyə cəlb etmək olar. O qədər pul qazanırlar, qoy vergi də versinlər. Onlar vergiyə cəlb olunsa avtomatik olaraq Statistika Komitəsində işçi kimi qeydə alınacaqlar, bu isə müvafiq statistik göstəricinin yenilənməsi anlamına gələcək.**



# Abşeron rayonunda Novruz şənliyi keçirildi

**Martın 17-də Abşeron Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xırdalan şəhərinin Heydər Əliyev parkında bayram şənliyi təşkil olunub. Tədbirdə rayonun təhsil, mədəniyyət, səhiyyə və digər xidmət sahəsində çalışan şəxslər iştirak edib.**



Şənlikdə Abşeron rayonunun bir çox qəsəbə və kəndlərindən gələn iştirakçılar özlərinin yaratdığı stendlə çıxış ediblər.

Abşeron Rayon İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri Seymur Qasımbəyli tədbir haqqında "Yeni Müsavat" qəzetinə danışıb. O, Abşeron rayonunda təşkil olunan Novruz şənliyinin özəlliyindən söz açıb: "Novruz şənliyində 2700 nəfərdən çox milli geyimli xanım və kişilər qatılıb. Onu bildirim ki, bu Azərbaycanda keçirilən tədbirlərdə milli geyim iştirakçılarına görə yeganə şənlikdir. Gördüyünüz kimi Novruz şənliyi yüksək səviyyədə təşkil olunub. Şənliklə yanaşı burada milli adət-ənənələrimiz də nümayiş olunur. Daha çox diqqət çəkən nümayişlərdən biri də ötən ilin aprel ayında işğaldan azad etdiyimiz Cocuq Mərcanlı kəndinin stendinin yaradılması oldu. Bu stend tədbirdə iştirak edən rəsmi şəxslərin və vətəndaşlarımızın diqqətini dah çox çəkdi".

**Daha sonra tədbirdə iştirak edən Abşeron Rayon İcra başçısı İradə Gülməmmədova şənliyin məşəlinin qalanmasında iştirak edib. İcra başçısı və rayonun rəsmi şəxsləri nümayiş olunan stendlərə baxmaq üçün bayram gəzintisi həyata keçiriblər.**

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**




# Kamil Zeynallı jurnalistdən üzr istəyəcək - məhkəmə qərarı

## Jurnalist: "Kamil yuxusunda görər ki... "

**İdmançı Kamil Zeynallı ilə jurnalist Əfruzə Ağayeva arasında gedən məhkəmə prosesi başa çatıb. Məhkəmə jurnalistin qarşı tərəflə bağlı tələbini qismən təmin edib və qərara görə K.Zeynalli jurnalistin ünvanına dediyi təhqirlərə görə sosial şəbəkədə üzr istəməlidir. Jurnalistin iddia tələbinin qalan hissəsində, yəni 50.000 manat dəymiş mənəvi zərərin ödənilməsi rədd edilib. Eyni zamanda K.Zeynallının jurnalistdən 100 min manat tələb etməsi iddiası da rədd edilib.**





Məsələ ilə bağlı idmançı Kamil Zeynallı sosial şəbəkədə bu cür mövqe bildirib:

"Bu gün mənə qarşı açılan məhkəmə yekunlaşdı, qərar verildi: Kamil Zeynallı heç bir təzminat ödəməyəck. Qarşı tərəf Kamil Zeynallıdan üzr istəyəcək, Kamil də qarşı tərəfdən... Hara kimi lazımdırsa, gedəcəm... 50 min, yox bir 50 qəpik".

Jurnalist Əfruzə Ağayeva isə müsavat.com-a açıqlama verərək idmançının məhkəmə qərarını təhrif etdiyini bildirib:

"Kamil yuxusunda görər ki, mən ondan üzr istəyim. Məhkəmə qərarına əsasən də Kamil Zeynallı Əfruzə Ağayevadan üzr istəyəcək. Yalandan "İnstagram"da nələrsə yazıb camaatın başını aldadır. Bəs nə oldu sən pul verib üzr istəməyəcəkdin, ay Kamil? Fakt Kamil Zeynallı uduzdu, lakin cərimə ödəməyəcək, məhkəmə iddianın o hissəsini ləğv edib nəyəsə görə... Kamilin vəkili deyir ki, Əfruzə Ağayeva üzr istəməlidir, Kamil Zeynallı təkzib verməlidir. Məhkəmə qərarını təhrif edib, jurnalistlərə açıqlama verir. Bu nə savadsızlıqdır? Kamil Zeynallı bəyəm jurnalistdir təkzib verə? Niyə demir ki, Kamil Zeynallı üzr istəməlidir və müdafiə elədiyim insan uduzub deyə. Camaatı aldatmayın, çünki bir müddət sonra mən qərarı mediada yayacam".

**Jurnalist məhkəmənin qərarını ədalətli hesab etmədiyini bildirib:**

"Çünki qarşılıqlı heç bir əsas olmadan Kamil Zeynallı üzr istədikdən sonra mənim də aparıcı Şənbəm Həsənovadan aldığım yazı ilə bağlı təkzib verməmi istəyib. Ancaq insan yalan yazanda təkzib verir. Amma Şəbnəm etiraf edir ki, mən demişəm bu sözləri, sözlərindən qaçmır. Səs yazıları da var. Mən niyə təkzib verim ki?"

**Xatırladaq ki, bir müddət bundan əvvəl idmançı Kamil Zeynallı jurnalist Əfruzə Ağayevanı sosial şəbəkədə və mətbuatda təhqir edib. Bu səbəbdən jurnalist məhkəməyə müraciət edərək idmançının ondan üzr istəməsini və dəymiş mənəvi ziyana görə 50 min manat tələb etmişdi.**

❑ **Xalidə GƏRAY**

# ANS-in yayımı bərpa olacaqmı...

## Mais Məmmədov: "Hələ heç bir müsbət xəbər yoxdur"



**ANS-in qapadılmasının 8 ayı tamam oldu. Kanalın bağlanmasından sonra ötən müddət ərzində keçirilən məhkəmə prosesləri heç bir nəticə verməyib və telekanal rəhbərliyinin iddiaları təmin edilməyib.**

Ötən 8 ay ərzində ANS-in əməkdaşlarının da bir qismi digər kanallarda işə düzəliblər. Lakin əksər əməkdaşların kanalın fəaliyyətinin bərpa olunacağı ümidi ilə gözlədikləri bildirilir.

Eyni zamanda yayılan məlumatlara görə, Zoologiya İnstitutu fəaliyyəti dayandırılmış ANS teleşirkətinə əmlakının hazırda yerləşdiyi binadan çıxarılması üçün martın 23-dək vaxt verib. Lakin institutun rəhbərliyi bildirib ki, ANS-in rəhbərliyi özü bu ərazidən köçmək qərarını verib və fəaliyyətlərini başqa yerdə davam etdirəcəklər.

**ANS Şirkətlər Qrupunun prezidentinin media müşaviri Mais Məmmədov** "Yeni Müsavat"a söyləyib ki, kanalın açılması ilə bağlı hələ də heç bir müsbət xəbər yoxdur. M. Məmmədov onu da qeyd edib ki, bütün bunlara baxmayaraq, onlar hələ də ümidlə kanalın açılacağı günü gözləyirlər...

Xatırladaq ki, MTRŞ Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayım və Media" Şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən 1 ay müddətinə dayandırılması barədə qərar qəbul edib. Həmin zamandan etibarən kanalın fəaliyyəti dayandırılıb.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017

**"Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında bu dəfə Qubad İbadoğludur. Dünyanın iqtisadi mərkəzi olan Nyu-Yorkdan yenicə dönən Qubad bəylə FED-in son qərarından, dollar-manat münasibətlərindəki durumdan, Azərbaycanın MSŞT-dən çıxarılmasından və Boqotada keçirilən iclasın detallarından danışdıq.**



# "Azərbaycan hökuməti nümayəndələri Boqotaya hazır bəyanatla gəlmişdilər"

## Qubad İbadoğlu: "Ermənistanın üzvlüyə qəbulu ilə bağlı şərt qoyuldu ki, işğal etdiyi ərazilərdə mədən sənayesinin hasilat göstəricilərini hesabata daxil etməyəcək"

***- Qubad bəy, ABŞ-dan yenicə dönmüsünüz. Bu, işgüzar səfər idimi? ABŞ-da hansı görüşlər keçirdiniz?***

- Əsasən ABŞ-ın Nyu-York şəhərində oldum. Orada dayanmaq məqsədim həm də öncədən planlaşdırılmış görüşlərimi keçirmək idi. Bildiyiniz kimi, Nyu-York ABŞ-ın həm maliyyə, həm biznes, həm də siyasi mərkəzlərindən biridir. Bir çox beynəlxalq təşkilatlar öz qərargahlarını Nyu-Yorkda yerləşdiriblər. Mən də fürsətdən istifadə edərək bəzi beynəlxalq təşkilatlarda və universitetlərdə görüşlər keçirdim. Təbii Resursların İdarə Olunması İnstitutunda, Açıq Cəmiyyət İnstitutunda, Kolumbiya universitetində görüşlərim oldu. Bir çox yerli ekspertlərlə, analitiklərlə də Azərbaycan məsələsi ilə bağlı görüşlərim və müzakirələrim oldu.

***- FED-in qərarını Nyu-Yorkdan izləmək imkanınız oldu. Dünya birjalarının buna reaksiyasını müşahidə etdiniz. Budəfəki prosesi necə dəyərləndirirsiniz?***

- Bu, gözlənilən bir qərar idi. Reaksiya da adekvat oldu. Hər zaman belə qərarlara ilkin reaksiya ilə sonrakı reaksiya arasında fərq olur. Bu dəfə də xüsusi sürprizlərlə qarşılaşmadıq. İstənilən halda FED-in uçot dərəcələrini artırması ABŞ-ın bölgədən kənarda olan valyutasının ölkəyə gətirilməsinə, ABŞ valyutasının baha satılmasına xidmət edən bir qərardır. Təbii ki, bu qərarın Azərbaycana da müəyyən təsirləri var. Ancaq birbaşa təsirlərdən danışmaq mümkün deyil. Çünki ABŞ-la Azərbaycanın ticarət əlaqələri o qədər də geniş deyil. Eyni zamanda ABŞ-ın Azərbaycanda Azərbaycanın ABŞ-da investisiya imkanları geniş deyil. Bunun əsas səbəblərindən biri ABŞ-ın Azərbaycandan çox uzaqda yerləşməsi ilə bağlıdır. Birləşmiş Ştatların qiymətli kağızlar bazarında da Azərbaycan mənşəli sərmayələr o qədər də çox deyil. Ona görə də birbaşa təsirlərdən danışmaq tezdir. Ancaq nəzərə alsaq ki, Dövlət Neft Fondunun əsas aktivləri dollarla saxlanılır, təbii ki, dolların möhkəmlənməsi bütövlükdə DNF-in valyuta səbətində məzənnə fərqi ilə gəlirlərin artmasına gətirib çıxarır. Bu baxımdan FED-in qərarının hətta müsbət təsirlərindən də danışmaq mümkündür. Birmənalı şəkildə neqativ kontekstdə qiymətləndirmək də doğru olmaz.

***- ABŞ-da dolların məzənnəsi ilə bağlı iki fikir var: FED bahalı dolların, ABŞ hökuməti isə ucuz dolların və ixracın stimullaşdırılmasının tərəfdarıdır. Sizcə, dollar qarşıdakı dövrdə bahalaşa bilərmi?***

- Birləşmiş Ştatlar unikal bir ölkədir. Orada ikifikirlilik həm iqtisadiyyatda, həm biznesdə, həm də siyasətdə inkişafın əsas hərəkətverici qüvvəsindən biridir. Mən ABŞ-da olarkən də bu ölkənin televiziyalarında müxtəlif məsələlərlə bağlı geniş debatların şahidi oldum. Orada gördüm ki, hər iki tərəfin özünün müəyyən əsaslandırmaları var. Ümumiyyətlə, makroiqtisadiyyatda bir-birinə zidd olan müxtəlif nəzəriyyələr olsa da onların hər birinin arqumentlərini biz müəyyən dövrdə haqlı hesab edə bilərik. Əgər söhbət uzunmüddətli dövrdən gedirsə, təbii ki, dolların bahalaşmasından danışmağa dəyməz. Ancaq hazırkı dövrdə iqtisadiyyatda kifayət qədər müsbət təmayüllər hiss olunur. O cümlədən, məşğulluq və inflyasiya ilə bağlı göstəricilər iqtisadi siyasətdə başlıca indiqatorlar sayıldığı üçün qısamüddətli dövrdə olsa da ABŞ dollarının bahalaşmasını gözləməliyik.

**"Qiymətləndirmə hesabatından görünürdü ki, Azərbaycan bu tədbirlər planını tam şəkildə yerinə yetirməyib"**

***- Qubad bəy, siz MSŞT-nın Boqotada keçirilən 36-cı toplantısının iştirakçısı idiniz və orada baş verənləri yerindəcə izləmək imkanınız oldu. Nələr baş verdi Boqotada?***

- Cəmiyyətdə belə fikir formalaşıb ki, Azərbaycan həmin təşəbbüsdən çıxarılıb. Ancaq əslində elə deyil, Azərbaycan həmin təşəbbüsdə saxlanılmışdı və Azərbaycanın təşəbbüsdən çıxarılması ilə bağlı Boqotada keçirilən Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Beynəlxalq İdarə Heyətinin heç bir qərarı olmayıb. Beynəlxalq İdarə Heyətinin qərar qəbul etmək üçün müəyyən tələbləri və qaydaları var. Bu yalnız Azərbaycana deyil, digər ölkələrə də şamil olunur. Azərbaycan digər ölkələrlə müqayisədə bu qərarların, standartların işlənməsində daha yaxından iştirak edib. Çünki Azərbaycan MSŞT üzrə ilk 5 pilot ölkədən biri olub. Azərbaycan ilk olaraq bu Təşəbbüsdə tam hüquqlu üzv olub. Azərbaycan ilk dəfə olaraq MSŞT-nı BMT-nin 60 sessiyasının qətnaməsində müəllif ölkə olaraq təqdim edib. Bu da BMT-nin 63-cü sessiyasında qəbul olunub. Məsələ bundan ibarətdir ki, Azərbaycan bir vaxtlar MSŞT-nın əsas təbliğatçısı idi, Azərbaycandakı mövcud nəticələr digər ölkələrdə örnək kimi istifadə olunurdu. Bu baxımdan bu müəyyən bir dövrü əhatə edədi. Azərbaycanın MSŞT-dakı iştirakının ilk 10 illiyini belə qiymətləndirmək olar. Ancaq son 5 ərzində MSŞT-da Azərbaycanla bağlı kifayət qədər müzakirələr gedib. Mən həmin təşəbbüsdə 2013-cü ildə Beynəlxalq İdarə Heyətinə seçilmişəm. Bundan öncə də Azərbaycanla bağlı müzakirələr gedirdi. Aktiv müzakirələr isə 2014-cü ilin iyun ayından başladı. Həmin dövrdə Azərbaycanda vətəndaş cəmiyyətinin problemlərinin kütləvi formada artdığı bir dövr idi. Bilirsiniz ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün 3 tərəfi var. Burada şirkətlərlə yanaşı hə də Azərbaycan vətəndaş cəmiyyəti, təşkilatlar da iştirak edir. Boqotada gözləntilərimiz bundan fərqli deyildi. Bilirdik ki, Azərbaycan Astana toplantısında qəbul olunmuş islahedici tədbirlər planını yerinə yetirməsə Boqotadakı müzakirə çox çətin keçəcək. Həqiqətən də elə oldu. Azərbaycanla bağlı müzakirələr kifayət qədər uzandı. Qərar vermək də asan olmadı. Azərbaycan məsələsinin uzanması da onu göstərdi ki, ciddi müzakirələr gedib və bunun da əhəmiyyətli rolu olub. Boqota toplantısında 4 ölkənin fəaliyyətinin dayandırılmasına qərar verildi. Bunlar Tacikistan, Qırğızıstan, Azərbaycan və Solomon adaları oldu. Ancaq digər ölkələrin, o cümlədən Nigeriya, Peru, Mavritaniya və Liberiyanın qiymətləndirmə hesabatını göstərdi ki, onlarda nəzərəçarpacaq dəyişikliklər var. O baxımdan onların statusunun aşağı salınması və ya fəaliyyətinin dayandırılması ilə bağlı hər hansı qərar qəbul olunmadı. Bu zaman onlara da müəyyən islahedici tədbirlər proqramı təqdim olundu. Azərbaycan bu qiymətləndirmə məsələsində hər zaman öndə olduğu üçün MSŞT üçün hər zaman bir eksperiment ölkə olub. Biz Boqotaya gedəndə Astana toplantısında Azərbaycana verilən islahedici tədbirlər planının yerinə yetirilməsi ilə bağlı qiymətləndirmə hesabatı hazır idi. Orada da qeyd olunmuşdu ki, Azərbaycan bu tədbirlər planını tam şəkildə yerinə yetirməyib. Azərbaycanın fəaliyyətinin dayandırılması da gündəlikdə var idi, hökumət də bunu bilirdi. Boqotaya ezam olunan Azərbaycan hökuməti nümayəndələri ora hazır bəyanatla gəlmişdilər.

***- Siz belə bir bəyanatın veriləcəyindən xəbərdar idinizmi?***

- Bəli, mən xəbərdar idim və çalışdım ki, müəyyən adamları məlumatlandırım. Bildirim ki, belə bir hal baş verərsə, Azərbaycan təşəbbüsdən çıxa bilər. Ancaq Azərbaycan analoji vəziyyəti 2015-ci ildə yaşamışdı. Orada Azərbaycanın statusunun aşağı salınması ilə bağlı qərar qəbul olundu. O zaman da hökumət bəyanat səsləndirmişdi ki, MSŞT-dan çıxa bilər. O zaman Azərbaycanın bu bəyanatı verməsi, lakin Təşəbbüsdən çıxmaması indiki halda da belə bir bəyanatın veriləcəyi ilə bağlı səsləndirilən fikirlərin təsir gücün aşağı saldı. Düzdür, rəsmi hökumət nümayəndələri belə bir bəyanatın olacağını açıqlamadılar. Onlar dedilər ki, bunu əvvəlcədən açıqlasaq, şantaj və təzyiq kimi qiymətləndirə bilərlər. Mən hökumət nümayəndələrinin Boqotaya belə bir bəyanatla gəlməsini təsdiq edə bilərəm. Lakin Təşəbbüsdən çıxarılan digər ölkələr belə bəyanatlar verməmişdilər.

**"Azərbaycan hökumətinin qərarını tələsik və emosional bir qərar hesab edirəm"**



Azərbaycan hökumətinin qərarını mən tələsik və emosional bir qərar hesab edirəm. Bu, reallığı nəzərə alaraq verilən bir qərar deyil. Bu getdikcə böyüyən və genişlənən bir Təşəbbüsdür. Bura daxil olan ölkələrin sayı artır. Bu, bir inteqrasiya prosesidir və Azərbaycan bundan faydalana bilərdi. Bu, Azərbaycanın gələcəyi üçün də əhəmiyyətli məsələlərdən biridir. Yəqin ki, bir müddətdən sonra hökumət itkilərini hesablamağa başlayacaq. Azərbaycanın çox ciddi investisiya imkanları var. Xüsusilə də, "Şahdəniz 2" yatağının işlənməsi ilə bağlı, eyni zamanda Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsi ilə əlaqədar olaraq investisiya cəlb etmək Azərbaycan üçün əvvəlki kimi asan olmayacaq. Çünki bu layihələrə cəlb olunan investorlar da Azərbaycan MSŞT-dan çıxmaq qərarından məmnun deyil. Onların Azərbaycana münasibətində müəyyən dəyişikliklər baş verəcək. MSŞT-nın tələbləri həm də korrupsiya indeksi, yaxşı idarəetmə, açıq büdcə tələbləri ilə bağlı idi. Hesab edirəm ki, bundan sonra təbii resursların idarə edilməsi prosesi pisləşəcək və Azərbaycanın həm kredit, həm də investisiya göstəricilərinin də pisləşəcəyini proqnozlaşdırmaq olar. Azərbaycana gələn investorların, xüsusən də mədən sənayesi ilə bağlı sahələrə yatırım etmək istəyənlərin qərar verməsində Azərbaycanın MSŞT-da qalıb-qalmaması əhəmiyyətli rol oynayırdı, bundan sonra da oynayacaq. Vətəndaş cəmiyyəti üçün də bu bir platforma idi. Düzdür, bu platforma əvvəlki kimi geniş istifadə oluna bilmirdi, imkanlar məhdud idi. Ancaq QHT-lərin həm hökumət ilə, həm də şirkətlərin nümayəndələri bu məsələ ətrafında müzakirə aparmaq imkanımız var idi. O platformanın da imkanları itirildi. MSŞT Beynəlxalq İdarə Heyəti də Azərbaycan kimi təcrübəyə malik olan, uzunmüddətli dövrdə MSŞT tələblərini tətbiq edən, bu mənada digər ölkələr arasında fərqlənən bir üzvünü itirdi.

***- Ermənistanın MSŞT-ya üzvlüyə qəbul olunmasını necə dəyərləndirirsiniz?***

- Azərbaycan hökumət olaraq bunun əleyhinə olmadı. Əvvəldən də görünürdü ki, Azərbaycanın belə bir niyyəti olmayıb. Sadəcə, hökumət bundan istifadə edərək Ermənistanla bağlı siyasətini MSŞT-ya üzv olan ölkələrə çatdırmaq imkanlarını da düzgün olaraq dəyərləndirdi. Əvvəlcədən, MSŞT-ın İdarə Heyəti üzvlərinə Azərbaycan hökumətinin müraciət məktubları göndərilmişdi. Azərbaycan hökuməti bu müzakirədən əvvəl də eyni müraciəti payladı. Mən də bu prosesə qoşuldum. MSŞT İdarə Heyətində üzvlük məsələsi çox texniki xarakter daşıyır. Demək olar ki, Ermənistan yeganə ölkədir ki, üzvlüyə qəbul olunması geniş müzakirə olundu. Çünki bu ölkə Azərbaycan ərazilərini işğal edib və həmin ərazilərdə mədən sənayesi ilə məşğuldur. Bu dəfə də Beynəlxalq İdarə Heyətinin üzvləri Ermənistanın üzvlüyə qəbul olunmasının əleyhinə çıxış etdilər. Bildirdilər ki, bu ölkə şərtlə qəbul olunmalıdır. Ermənistan öhdəlik götürməlidir ki, işğal etdiyi ərazilərdə mədən sənayesinin hasilat göstəricilərini hesabata daxil etməyəcəklər. Beynəlxalq İdarə Heyətinin sədri də elan etdi ki, bu məsələləri nəzərə alınır. Biz bununla bağlı məktub hazırlayacağıq, bu məktub həm Ermənistan hökumətinə, həm də Beynəlxalq İdarə Heyəti üzvlərinə təqdim edəcəyik. O baxımdan Ermənistanın qəbulu ağır keçdi.

**"Təbii ki, dolların möhkəmlənməsi bütövlükdə DNF-in valyuta səbətində məzənnə fərqi ilə gəlirlərin artmasına gətirib çıxarır"**

❑ **Nərgiz LİFTİYEVA**
**Foto: Məğrur MƏRD**

**Martın 16-dan bəri media və ədəbiyyat cameyəsi gənc yazar Mövlud Mövludun (Abdullayev) intiharı ilə şokdadır. 28 yaşlı gəncin ürək dağlayan hekayəti və intiharının arxasındakı suallar isə hələ də müzakirə mövzusudur. Xatırladaq ki, o, özünü Süleyman Sani Axundov küçəsi 31/23 ünvanındakı binanın 17-ci mərtəbəsindən yerə atıb və hadisə yerində ölüb.**



# İntihar edən jurnalistin baş redaktoru: "Mövludun intiharında bu ayrılığın rolu güclüdür"

## Aynur Camalqızı Mövludun özünə qəsdi barədə bilinməyənləri danışdı: "Son günlər intihar edəcəyini dostlarına deyirmiş…"

Dediyimiz kimi, ortada xeyli cavabsız suallar var. Belə bir ərəfədə isə hər nə qədər jurnalistika qaydaları yaxınları, ailə üzvlərini danışdırmağı tələb etsə də, bu, çox nadir hallarda baş tutur. Çünki yaxınları bu ağrılı intiharın şokunu hələ də üzərlərindən ata bilməyib. Amma Mövludun "ikinci evi" sayılan iş yerindən bəzi suallara cavab tapa bildik. Ölümündən öncə çalışdığı **"Gündəlik Teleqraf" MMC-nin sahibi Aynur Camalqızı** musavat.com-a müsahibəsində bəzi məsələlərə aydınlıq gətirdi, sevimli işçisi Mövludun ölümündən keçirdiyi ağrını bizimlə paylaşdı.

***- Aynur xanım, cəmiyyət, xüsusən də media sektoru Mövludun intiharının şokundadır hələ də. Hər kəsin bu gəncə ürəyi ağrımaqla yanaşı, səbəb də axtarır bu faciəyə. Nə idi bu intiharın arxasındakı səbəb? Məlumat və təxminləriniz nə deyir?***

- Təbii ki, hamı kimi mən də şokdayam. Mövlud çox simpatik, istedadlı gənc idi. Həyatsevər, parlaq, işıqlıydı. Onun bir gün intihar edəcəyini təsəvvür belə etməzdim. Son bir neçə aya qədər onda depressiv bir durum hiss etməmişdim. Teleqraf.com-da redaktor idi, həvəslə işləyirdi, ədəbiyyatla bağlı maraqlı ideyaları vardı. Son aylarda həyat yoldaşıyla *(jurnalist Sevinc Fədai* - **red.***)* aralarında müəyyən problemlərin olduğu deyilirdi. Sonra Sevinc Fədai bizdən işdən getdi, başqa sayta keçdi. İşdən gedərkən, deyəsən, evdən də gedib, atasıgilə köçüb. Ailəiçi məsələ olduğu üçün danışmaq istəmirəm bu barədə. Amma düşünürəm ki, Mövludun intiharında bu ayrılığın rolu güclüdür. Həyat yoldaşının boşanacağını düşünərək depressiyaya düşdü. Tez-tez intihar edəcəyini deyirmiş. Əlbəttə, adam inanmaq istəmir. Ona görə də heç kəs inanmazdı ki, dediyini edər. Biz sonadək ona dəstək olmağa çalışdıq. Bütün kollektiv şahiddir ki, çox şey etdik. Amma görünür, hər şey edə bilmədik. Təxminən 15 gün öncə xəstəxanaya göndərdik. Bir həftə xəstəxanada qaldı, müalicə aldı. Keçəcəyini güman edirdik. Görünür, keçməyibmiş. İnanın ki, özümü çox günahkar sayıram. Sarsıntı içindəyəm. Mövlud kimi bir gəncin yetişməsi üçün 28 il vaxt lazımdır. Ədəbiyyat adına böyük itki sayıram, istedadına heyfislənirəm. Onu qorumaq lazım idi.

***- Eyni iş yeri, kollektiv ikinci ailə deməkdir. Ən azı ailəsi qədər tanıyırdız Mövludu demək ki...***

**"Mövludun qardaşı Bakının rayonlarından birində, prokurorluqda müstəntiq işləyir. Xalası tanınmış müğənni Xumar Qədimovadır. Maddiyyata həvəsli olsaydı, onların yanında olardı"**

- Əlbəttə ki. İş yeri bizim ikinci evimizdi. Günün çox hissəsini bir yerdə keçirdiyin insanlarla, təbii ki, çox doğmalaşırsan. Mövludu redaksiyada hamı çox istəyirdi. Mehriban idi, sevimli idi. İndi düşünürəm ki, sevgiyə, ilgiyə çox ehtiyacı olan bir adam imiş. Həssas idi, tez qırılan idi. Qohum-əqrəbası ilə əlaqə saxlamırdı bildiyim qədər. Ona görə də Sevinc onu tərk edən kimi təkləndi. İndi yoldayıq. Kollektivimizlə birgə onun dəfn mərasiminə gedirik. Çox istərdim onun valideynlərindən soruşum ki, Mövludu niyə tək qoymuşduz? Onun sığınmaq, söykənmək üçün bir çiyinə nə qədər ehtiyacı var imiş...

***- Onunla son görüşünüzü necə xatırlayırsız?***

- Sonuncu gün işdə mənə dedilər ki, Mövlud çox əsəbidir. Səhər iclasda bir neçə dəfə baş redaktorla mübahisə edib. Köməkçim Humay dedi ki, onunla danışmağa ehtiyac var. Çağırdım. Rəngi bəmbəyaz, fikri dağınıq idi. Üzünə baxanda ürəyim sıxıldı. Aydın Dadaşovun ölümündən danışmağa başladı. Dedi, tələbələrindən açıqlamalar alırıq. İradə Musayevadan, Elçin Əlibəylidən açıqlama aldıqlarını, digərlərini axtardıqlarını dedi. Yəqin elə bilirdi ki, işlə, gündəmlə bağlı çağırmışam. Bir neçə dəfə "narahat olmayın, hazırlayıb sayta qoyacağıq" dedi. "Niyə beləsən, sənə nə olub", deyə soruşdum. "Bəlkə səni Sevinclə barışdıraq", dedim hətta. Dedi, "yox, qətiyyən ona zəng etməyin". Dedim, "Mövlud, güclü ol, sən güclü olmalısan, bunlar hamısı keçəcək. Məndən asılı nə varsa, eləyim. Sənin arxandayıq, möhkəm ol". Soyuqqanlılıqla "yaxşı" dedi və getdi. Mənə elə gəldi ki, o, heç məni dinləmir, sanki fikri başqa yerdədir. Çox narahat oldum. Əlimi telefona uzatdım ki, xalasına - Xumar Qədimovaya zəng edim, vəziyyəti izah edim, kömək istəyim. Sanki qolumdan tutub saxladılar. Hələ tezdir, bəlkə yatır, günün ikinci yarısı zəng edərəm deyə düşündüm. Sonra başım qarışdı, zəng etməyi də unutdum. İndi fikirləşirəm ki, bəlkə zəng etsəydim, vəziyyəti danışsaydım, qohum-əqrəbası başına yığılar, onu bu fikirdən daşındırardı. Özümü çox qınayıram.



**"Axırıncı gün çağırdım otağa, danışdıq. Fikri dağınıq idi, sanki məni heç dinləmirdi"**

***- Öldüyü zaman cibindən çıxan cüzi qəpiklər... Mövludla bağlı ağılda qalan mənzərə həm də budur. Onun həm də kasıblıqdan, maddi problemlərin çoxluğundan intihar etdiyi yayılan söhbətlər sırasındadır... Bu məqamda istər-istəməz onun baş redaktoru olaraq sizin söz haqqınız yaranır - işçiniz Mövlud kasıblıqdan əziyyət çəkirdi?***

- Mən bunu deyənlərə facebookda da etiraz etmişəm. İndi də təkrar edirəm: maddi imkansızlığa görə olsa, məntiqlə gərək bütün yaxşı insanlar canına qəsd etsin. Bu, sırf psixoloji məsələdir. İndi maddi sıxıntı hər yerdə və hər kəsdə var. Bu, heç vaxt səbəb ola bilməz və Mövludun səbəbi də dəqiq bilirəm ki, bu deyildi. Onun qardaşı Bakının rayonlarından birində, prokurorluqda müstəntiq işləyir. Xalası tanınmış müğənni Xumar Qədimovadır. Maddiyyata həvəsli olsaydı, onların yanında olardı. Mövludu tanıyanlar bilir ki, o pul-para dalınca heç vaxt qaçmayıb. Bizdə də redaktor kimi normal maaş alırdı. Mən də həmişə maddi problemi olanda dəstək vermişəm. Dünən facebookda rast gəldim bu fikrə - intihar böyük bir sualdır. Bəli, hansı səbəbdən baş verdiyini anlamaq o qədər çətindir ki. Bəs psixoloq Dəyanət Rzayev niyə intihar etdi? O ki maddi durumu qaydasında olan bir insan idi? Üstəlik, psixoloq. Yəni, birmənalı cavab vermək çox çətindir. Bircə onu bilirəm ki, belə insanların tək qalması təhlükəlidir. Belə depressiv vəziyyətdə dostlar, qohumlar onu tək qoymamalıydı.

**"İndi fikirləşirəm ki, bəlkə zəng etsəydim, vəziyyəti danışsaydım, qohum-əqrəbası başına yığılar, onu bu fikirdən daşındırardı. Özümü çox qınayıram"**

***- Mövlud ölümündən öncə bir neçə gizli mesaj verib sanki. Facebook profilini bağlayıb, qapısının üstünə iki ürək şəkli yapışdırıb, redaksiyanın yaxınlığındakı binanın 17-ci mərtəbəsindən özünü atıb... Bütün bu mesajları bir araya gətirəndə, hansı nəticəni çıxarmaq olar?***

- O mesajlarda nəyi nəzərdə tutduğunu özündən başqa heç kəs bilə bilməz. Profilini son vaxtlar tez-tez bağlayır, sonra açırdı. Son mesajını oxumuş olsaydım, mütləq onu axtarardım. Təəssüf edirəm ki, facebookda olmamışam o saatda. Kimsə xəbər etsəydi, mütləq şübhələnərdim. Çünki intihar edəcəyini işdə də, dostlarına da deyirmiş son günlər. Mən hər dəfə Sevincə, yaxud Mövludun xalasına, qardaşına zəng etməyə cəhd edəndə sanki gözəgörünməz qüvvə qolumdan tutub saxlayırdı. Onu da fikirləşirəm ki, bəlkə əcəl imiş bu? Sadəcə intihar formasında baş verdi? Bəlkə Tanrı ona elə 28 il ömür yazıbmış? O qədər cavabsız suallar var ki...

***- Bu günlərdə sosial şəbəkədə bəziləri Mövludun həyat yoldaşı Sevinc xanımı onu tək qoyduğu üçün qınayır. Siz Sevinc xanımla, eks işçinizlə bu barədə danışmısızmı? Mövlud həyatının son dəqiqəsində onunla əlaqə saxlayıbmı, sağollaşıbmı? Məlum, bizim onunla danışmaq imkanımız yoxdur, çünki mediaya cavab verəcək əhvalda, durumda deyil...***

- Mövludla Sevinc son gün danışıbmı, görüşübmü, bilmirəm. Amma həmin gün axşam saatlarında Sevinc Fədai bizim redaksiyaya gəlibmiş. Bunu səhəri gün gecə növbəsinin redaktorları danışdılar. Mövludgil redaksiyanın yaxınlığındakı bir binada kirayə qalırdılar. Redaktorlar deyir ki, sevindik, elə düşündük ki, barışıblar, ona görə Sevinc bura gəlib... Sonra nə baş verdiyini bilmirəm. Sevinclə danışmamışam. Mövludun ölümünün sarsıntısındadır yəqin ki. Sevinci mən də qınayıram. Onu da, özümü də, bütün dünyanı da qınayıram. Gərək onun əlini heç buraxmayaydı. Qoruyaydı Mövludu. Bunu o, etməli idi. Aradan nə keçirsə keçsin, azərbaycanlılar sivil yolla, dost kimi ayrılmağı bacarmırlar. Üstəlik, ortada körpə uşaq var. Mövludun həyatının son günlərində mərhəmətə ehtiyacı olub. Bir ələ ehtiyacı olub. Onu tutub saxlayan ələ. Məni düzgün anlamağa çalışın. Kişilər nə qədər güclü görünsələr də, onların həmişə güclü bir qadına ehtiyacları var. O qadın ana da ola bilər, həyat yoldaşı da, dost da. Təəssüf ki, Mövludun yanında elə bir qadın olmadı.

***- Dəfn mərasimində valideynlərinin iştirak etməməsi barədə söz-söhbətlər yayıldı. Doğrudurmu?***

- Xeyr, yalandır. Ata-anası, qardaşı, xalaları hamısı orda idi. Atasını dünən səhər həyat yoldaşım Bakıdan yola saldı. Anası onsuz da Qazaxdaydı. Amma Sevinc yox idi, öz atasıgildədir.

❑ **Sevinc TELMANQIZI**

**"Kişilər nə qədər güclü görünsələr də, onların həmişə güclü bir qadına ehtiyacları var. O qadın ana da ola bilər, həyat yoldaşı da, dost da. Təəssüf ki, Mövludun yanında elə bir qadın olmadı"**

# Xalq artistinin iki ailə üzvünün ölümünə səbəb olan məmur oğlu azadlıqda

## Ağasəlim Abdullayev: “Açıb buraxıblar, bizdən də heç nə soruşan olmayıb”

**“Ona cəza verdilər, cəzasını çəkmək üçün də müddət verdilər. Mən nə deyim, indi də açıb buraxıblar. Allah hamının övladını, ailəsini qorusun. Məndən heç nə soruşan olmadı” - xalq artisti, tarzən Ağasəlim Abdullayev həyat yoldaşı və nəvəsinin həyatına son qoymuş “Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin keçmiş sədr müavini Mübariz Mədətovun oğlu Xalid Mədətovun əfv edilməsinə münasibət bildirərkən belə deyib.**


Xalid Mədətov

Xalq artisti “Yeni Müsavat”a açıqlamasında qeyd edib ki, X.Mədətov əfvə təqdim edilərkən zərərçəkən kimi ondan heç kim heç nə soruşmayıb: “Məndən heç kim heç nə soruşmayıb. O hadisələrdən sonra mən nə onları görmüşəm, nə də aramızda barışıq olub. Açıb buraxıblar, bizdən də heç nə soruşan olmayıb”.

A.Abdullayev X.Mədətovun yaxınlarından ona təskinlik verən bir müraciət də gəlmədiyini bildirdi: “Bu söhbətə qayıtmayaq. Mən keçmişə qayıtmaq istəmirəm. Mən tərəfdən onlara heç bir razılıq verilməyib”.

Qeyd edək ki, Əfv Komissiyasının əsasnaməsinə görə şəxsi əfv edilmək təqdim edilirsə, adı əfv siyahılarına salınırsa, bu halda mütləq şəkildə zərərçəkən tərəfin mövqeyi nəzərə alınmalıdır.

Bu haqda əfv sərəncamı verilməzdən bir həftə əvvəl **Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev** “Yeni Müsavat”a açıqlamasında da bildirmişdi.

**Sitat:** “... azadlıqdan məhrum edilmiş şəxslərin törətdiyi cinayət əməli öyrənilir, cinayətin hansı şəraitdə törədilməsi, kimə qarşı törədilməsi və bir çox amillər diqqətlə nəzərdən keçirilir. Hər bir halda, müraciət müəlliflərinin işləri çox ciddi şəkildə yoxlanılır, islah olunub-olunmaması ilə bağlı rəylər nəzərdən keçirilir, eyni zamanda ailə vəziyyəti, xüsusilə zərərçəkənin məsələyə münasibəti öyrənilir”.

*Bəs Xalid Mədətov əfvə təqdim edilərkən xalq artisti Ağasəlim Abdullayevin zərərçəkən olaraq münasibətini, fikrini niyə öyrənən olmayıb?*

Xalid Mədətovun həbsinə səbəb olan ürəkparçalayan hadisə 2014-cü il martın 15-də baş vermişdi. Kef məclisindən çıxan Xalid Mədətov içkili vəziyyətdə bahalı “Mercedes-Benz G-55"in sükanı arxasında keçmiş, yüksək sürətlə xalq artistinin ailəsi olan "VAZ-2106" markalı maşına çırpılmışdı. Hadisə zamanı A.Abdullayevin həyat yoldaşı Brilyant Abdullayeva və azyaşlı nəvəsi həlak olmuşdu. Xalq artisti özü isə yaralanmışdı. Geniş ictimai rezonans doğuran hadisədən sonra “Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Mübariz Mədətov işdən qovulmuşdu. Xalid Mədətov barəsində isə Cinayət Məcəlləsinin 263-1.4-cü *(Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda)* maddəsi ilə istintaqa cəlb olunub. X.Mədətov məhkəməsində A.Abdullayevi borclu da çıxarmışdı: “O, təhlükəsizlik kəmərini bağlamamışdı”.

Mübariz Mədətov məhkəmə prosesi zamanı oğlunun həbsdən qurtarılması üçün saysız-hesabsız cəhdlər etsə də, xalq artistinin bu faciəyə görə bağışlamaqdan qəti imtinası nəticəsində Xalid Mədətova 12 il hökm oxundu. Üstündən 3 il keçəndən sonra isə əfv olundu. Halbuki əfv cəzasının yalnız üçdə ikisini çəkən məhkumlara şamil olunmalıdır.

Xalid Mədətov isə azadlıqdadır. Bu faktdır və yeni cinayətlərin törədilməsinə verilən vəsiqədir. Onun azadlığa çıxması üçün Əfv Komissiyasında qanunları ayaqlar altına kimlər qoyub bu başqa söhbətin mövzusudur, indi əsas məsələ odur ki, adam yenidən kef məclislərinə qatılıb bahalı maşınının sükanı arxasına keçəcək. Allah hamımızı, Əfv Komissiyasında Xalid Mədətovun azadlığa çıxması üçün çalışanlar da daxil olmaqla onun kimilərdən qorusun.

❑ E.MƏMMƏDƏLİYEV

# Vəzifəyə müsabiqə yolu ilə təyinat sui-istifadə hallarına yol aça bilər

## Natiq Cəfərli: “Dövlət qulluğuna imtahanların keçirilməsində şəffaflıq və obyektivlik təmin olunmalıdır”

**Artıq imtahan yolu ilə vəzifəli şəxslərin köməkçisi, şöbə müdiri olmaq mümkün olacaq. Azərbaycanda dövlət qulluğuna qəbul zamanı müsabiqə ilə tutulacaq yüksək vəzifələrin siyahısı məlum olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, Sahibkarlığa Kömək Milli Fondu və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun icraçı direktoru və onların müavini vəzifələrinə qəbul müsabiqə qaydasında aparılacaq.**

Həmçinin əksər dövlət orqanlarına qəbul müsabiqə yolu ilə baş tutacaq. Dövlət idarələrinin, komitələrin, mərkəzi icra hakimiyyəti orqanlarının şöbə müdiri vəzifələrinə imtahanla qəbul həyata keçiriləcək.

Habelə, Hesablama Palatası sədrinin köməkçisi, Ombudsmanın köməkçiləri, Bakı Şəhər İcra Hakimiyyəti başçısının köməkçisi, mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların rəhbərlərinin müşavirləri, köməkçiləri, Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının rəhbərlərinin müşavirləri, köməkçiləri, MTRŞ sədrinin köməkçisi vəzifələrinə yiyələnmək üçün müsabiqədə iştirak mütləq olacaq.

Bu cür vəzifələrə qəbul prosesinin müsabiqə yolu ilə keçirilməsi isə burada korrupsiya ehtimalını gücləndirir. Vəzifəli şəxslərin köməkçilərinin müsabiqə yolu ilə seçilməsi yeni korrupsiya yuvaları yaratmazmı? Məlum olduğu kimi müsabiqənin birinci hissəsi imtahan şəklində keçirilsə də, ikinci hissəsi müsahibə kimi keçirilir və burada da subyektiv qərarlar verilir.


Natiq Cəfərli

**Bu sualı cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, bu imtahanların keçirilməsində şəffaflıq və obyektivlik təmin olunmalıdır: “Dövlət qulluğu haqqında qanuna görə birinci test imtahanları verilir. Həmin imtahanlardan keçib yüksək bal toplayanlar sonradan müsahibə yolu ilə dövlət qulluğuna qəbul olunurlar. Uzun müddətdir ki, bu praktika tətbiq olunur. Sadəcə Azərbaycanda hər şey kağızda yazıldığı qaydada həyata keçirilmədiyi üçün çox güman ki, burada da problemlər müşahidə olunacaq. Bununla bağlı tez-tez xəbərlər eşidirik ki, insanlar test imtahanlarından uğurla keçsələr də, müsahibə mərhələsindən keçə bilmirlər. Bu da təkcə korrupsiya ilə deyil, müxtəlif səbəblərlə bağlıdır. Burada tapşırıq, tanışlıq, qohumluqla işə götürmə məsələləri də ortaya çıxa bilər. Əslində isə müsabiqənin insanların birbaşa təması olmadan keçirilməsi daha yaxşı olardı. Bəzi ölkələrin praktikasında isə belədir ki, namizədlər müxtəlif nömrələr altında müsabiqəyə qatılırlar, onların ad və soyadları açıqlanmır. Həmin nömrələrə uyğun ballar hesablanır. Sonradan bəlli olur ki, həmin nömrə altında kim imtahan verib və həmin şəxs işə qəbul olunur. Bu şəkildə kənar müdaxilələrin olmasının qarşısı alınır. Bu praktikanı Azərbaycanda da çox asanlıqla qəbul etmək olar”.

**İqtisadçı onu da bildirdi ki, xarici ölkələrdə gənclər arasında dövlət qulluğu o qədər də populyar deyil:** “Azərbaycan vətəndaşlarının dövlət qulluğuna can atmasının səbəbi də bəllidir. Dünyanın əksər inkişaf etmiş ölkələrində dövlət və hökumət sektorunda çalışmaq istəyən insanların sayı kifayət qədər azdır. Bir çox araşdırmalar da olub ki, Amerikada universitet tələbələrinin cəmi 4 faizi, Avropa ölkələrində isə 7-8 faizi öz karyeralarını dövlət strukturlarında qurmağı planlaşdırırlar. Azərbaycanda isə iki il öncə keçirilən sorğuda tələbələrin 85 faizdən çoxu dövlət qurumlarında çalışmaq və bu yolla stabil maaş almaq istədiklərini bildiriblər. Hətta bəzi xəbərlər də belə aktlar yer alır. Məsələn, hər hansı dələduzu həbs edirlər və məlum olur ki, insanlardan 15-20 min manat alıb və onlara hər hansı dövlət işinə düzəldəcəyi ilə bağlı söz verib. Sonra da yerinə yetirməyib. İnsanlar bu vəsaiti ödəyirlərsə, deməli şüuraltı olaraq düşünürlər ki, vergi, gömrük və məhkəmə və digər dövlət orqanlarında işə düzəlməklə verdikləri vəsaitləri asanlıqla geri qaytara biləcəklər. Bu düşüncə tərzi dəyişməlidir”.

❑ NƏRGİZ

# Avropa üçün prioritet - demokratiya, yoxsa korporativ maraqlar?

## İlham Şaban: “MSŞT-dan çıxmaq Azərbaycanın kredit almaq imkanlarına, beynəlxalq enerji layihələri ilə bağlı xərcləmələrinə hər hansı formada təsir etməyəcək”


İlham Şaban

**Məlum olduğu kimi, martın 9-da Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Beynəlxalq İdarə Heyətinin Boqoto toplantısında Azərbaycanın bu qurumda fəaliyyəti dayandırıldı. Bunun ardından QHT sektorunda çox gərgin müzakirələr başlandı. Ən çox səslənən fikirlərdən biri də bu idi ki, Azərbaycanın MSŞT-dan çıxması QHT sektorundan daha çox ümumilikdə ölkənin əleyhinədir. Səbəb isə odur ki, bu hadisə ölkənin beynəlxalq imicinə mənfi təsir edəcək, reytinqini aşağı salacaq və kredit almaq imkanlarını zəiflədəcək. Hətta bu prosesin Azərbaycanın iri qaz layihələri ilə bağlı öhdəliklərinin icrasına da mənfi təsir edəcəyini iddia edənlər oldu.**

Lakin “Cənub Qaz Dəhlizi” cəmiyyəti ötən gün daha 1 mlrd. dollarlıq avrobond yerləşdirib. Ötən ilin mart ayında “Cənub Qaz Dəhlizi” QSC tərəfindən 1 mlrd. ABŞ dolları məbləğində 7%-lik gəlirlilik dərəcəsi (6,875 kupon faizi ilə) və 10 il ödəmə müddəti ilə istiqrazlar emissiya edildikdən sonra, emitent, 144a/RegS tələblərinə uyğun olaraq, 1 mlrd. dollar dəyərində əlavə istiqraz buraxılışı üçün yenidən beynəlxalq kapital bazarlarına çıxıb.

İstiqrazlar Azərbaycan Respublikasının dövlət zəmanəti ilə təmin edilib. İlkin buraxılmış istiqrazların gəlirlilik dərəcəsi daxilində yeni istiqrazların 5,8% gəlirlilik dərəcəsi ilə yerləşdirilməsi Azərbaycana, eləcə də “Cənub Qaz Dəhlizi” QSC-yə kapital bazarının müsbət münasibətinin təzahürüdür. Əlavə emissiya 2026-cı ilə qədər buraxılmış beynəlxalq istiqrazların ümumi məbləğini 2 mlrd. dollara yüksəldib, bununla da bu emissiya ölkədə hazırda mövcud olan ən iri məbləğli avrobond buraxılışı hesab olunur.

“Cənub Qaz Dəhlizi” QSC-nin dövlət zəmanətli istiqrazları investorların böyük marağına səbəb olub. Belə ki, istiqrazların ən böyük hissəsi - 45%-i ABŞ, 40%-i Birləşmiş Krallıq, 13%-i digər Avropa ölkələri, 2%-i isə Asiya və Yaxın Şərq ölkələri tərəfindən alınıb. Buraxılışa gözləndiyindən artıq abunə toplanılmış və təklifin 90%-ni fond menecerləri təşkil edib, bu da öz növbəsində nüfuzlu institusional investorlar arasında şaxələnmiş bölgüyə yol açıb. Bu emissiya ötən 12 ayda “Cənub Qaz Dəhlizi” QSC tərəfindən beynəlxalq kapital bazarlarında ikinci uğurlu avrobond buraxılışıdır.

Məsələyə münasibət bildirən **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** da “Yeni Müsavat”a açıqlamasında da bildirib ki, MSŞT-dan çıxmaq Azərbaycanın kredit almaq imkanlarına, beynəlxalq enerji layihələri ilə bağlı xərcləmələrinə hər hansı formada təsir etməyəcək: “Hazırda qaz layihələri üzrə Azərbaycanın öhdəliyi 11,9 milyard dollardır. İlin əvvəlində 6 milyard dollardan artıq ödəniş etmişik. Birinci rübün sonunda bu rəqəm çox güman ki, 7 milyardı ötüb. Bu da ümumi məbləğin 50 faizindən çoxdur. İllər üzrə hesablasaq, xərcləmələrin pik həddini geridə qoymuşuq. Bizim bundan sonrakı xərcləmələrimiz kifayət qədər azalacaq”.

**İ.Şabanın sözlərinə görə, beynəlxalq ekspertlər də enerji layihələrinin icrası ilə bağlı Azərbaycanın imkanlarını yüksək qiymətləndirirlər:** “Dünən Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyətinin buraxdığı bondlara, onun faiz dərəcəsinə baxsaq, bir il əvvəlki ilə müqayisədə kifayət qədər aşağıdır. Ötən 7 faizin üzərində olsa da, bu il 5,75 faizə qədər azalıb. Bu da o deməkdir ki, Azərbaycanın imkanlarını daha yüksək qiymətləndirirlər. Bu baxımdan Azərbaycana kredit verilməsi, onun şərtlərinin ağırlaşdırılması və bu kimi məsələləri gündəmə gətirmək, Azərbaycan hökumətini bununla bağlı nəyəsə məcbur etmək kimi fikirlər mənasızdır. Ötən dövrün təcrübəsi də göstərir ki, bunlar praktika ilə uyğunlaşmayan addımlardır. Bu fikirləri gündəmə gətirməyin mənası nədir? Bu cür iddiaların KİV-də hallandırılması reallığı əks etdirmir”.

❑ N.LİFTİYEVA

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017



# Təqvim yır-yığışı

Zamin HACI
zaminhaci@gmail.com

**"Mart gözünə barmağım,
Yaza çıxdı oğlağım"**

*(Azərbaycan ata sözü)*

**Qəzetdə oxudum ki, Yeni Zelandiyada bir çaya insan hüquqları verilibdir. Yerli qəbilə o çayı müqəddəs sayırmış. İndi çayı xüsusi mühafizə edən adamlar ayrılıbdır. Fikirləşdim bizdə də insanlara çay hüququ verilibdir - harda istəsən qabağını kəs, suyunu sıx, canını al. Eyni zamanda, insanlarımıza respublikadan axıb getmək hüququ verilmişdir. Təbii, hamıya yox. Bəzi zəhmətkeşlərimiz, xüsusən də müxalif təbəqəyə aid olanlar bu qapalı həbsxanada qalmağa məhkumdur, onları sərhəddən buraxmırlar.**

Nəticədə absurd mənzərələr yaranır. Misal üçün, ölkədən çıxışına qadağa qoyulan adamlardan biri jurnalist Xədicə İsmayıldır. Dünən Ali Məhkəmə də bu qadağanı qüvvədə saxlayıb. Halbuki, Xədicə xanım az qala günaşırı hansısa beynəlxalq tədbirə internet üzərindən qoşulub sözünü deyir, hökuməti tənqid edir. Daha bunu fiziki olaraq ölkədə "həbs etməyin" anlamı nədir? Yaxud, bloqçu Mehman Hüseynov türmədə oxumaq üçün iranlı yazıçı Səhər Delicani-nin "Cakaranda ağacının uşaqları" kitabını istəyib, türmə rəhbərliyisə kitabı içəri aparmağı qadağan edib. Guya kitabda nəsə qadağan olunmuş temalar vardır. Bəs işin gülünc tərəfi nədir? Söhbət ondadır ki, bu kitabı elə Xədicə İsmayıl həbsdə olarkən tərcümə edibdir! Zindanın içində tərcümə edilmiş kitabı təzədən zindana buraxmamağa nə ad qoyasan?

İndi mart ayıdır, Yer kürəsinin mülayim qurşaq ərazilərində ilin ən yaxşı vaxtlarından biridir. Yaz gəlir. Ancaq uca millətimiz kasıbçılıq, min cür problemlər üzündən bu cür gözəl fəsilə, arıların uçuşduğu, çiçəklərin açıldığı, havaların isindiyi təbiət möcüzəsinə "Mart gəldi, dərd gəldi" münasibətini göstərir. Axırda isə "Mart çıxdı, dərd çıxdı" deyərək nöqtəni qoyacağıq. Qozun ləpəsi 30 manatadırsa, yazıq vətəndaş nə etsin? Onun marta münasibəti elə həyat uğrunda savaş motivləri üzərində, dərd, azar, "bayram oldu heç bilmirəm neyləyim, bizim evdə axta zoğal da yoxdur" ağlaşmaları, yuğlamaları üzərində qurulmalıdır. Bəlkə də qədim romalılar marta savaş tanrıları Marsın adını verəndə elə bizim kimilərin bu ay gələndə canıyla əlləşməyini nəzərdə tutmuşdur, necə deyərlər, uzaqgörənlik etmişdir.

Hərçənd, guya ilin o biri aylarında xoşbəxt oluruq? Yox. Hansı mövsümə baxsan işimiz çətindir. Yanvarı "qara" kimi möhürləmişik, ilin qara girməkdən başqa çarəsi yoxdur. Fevral boz aydır, faciəsi də məlumdur. Martı yazdıq. Hələ bu ayda azərbaycanlıların soyqırıma məruz qalmaları da var. Apreldə Kəlbəcəri itirmişik, maydakı, yay aylarındakı pis günləri də saydıqca bitməz. Bu nə həyatdır biz yaşayırıq, bu necə təqvimdir? Buna nəsə əncam çəkmək lazımdır. Ayıbdır. Yazdan, Günəşdən ayıbdır.

İlk növbədə həftənin günlərinə əl gəzdirməliyik. Bunlara adı kim qoyubsa, öncədən bizi qara günlü eləyibdir. Özünüz baxın: həftənin 7 günündən 2-si bizdə axşamdan ibarətdir. Absurd olsa da belədir. Çərşənbə axşamı, cümə axşamı. Axşam adında da gün olar? Təsəvvür elə, hansısa ingilisə, fransıza belə cümlə deyirsən: "Çərşənbə axşamının axşamı bizə qonaq gəl". Nə bilim, cümə axşamı axşam filan zad oldu. Adamlar elə bilər onları ələ salırıq. Həftənin iki gününü qabaqcadan qaranlıq elan edən xalq qalan beş gündə çatdırıb nəsə eləməlidir ki, dünya camaatından geri qalmasın. Üstəlik, onların da biri "duz" günüdür, yəni ağırdır, o biri isə bazara düşür.

"İti öldürənə sürüdərlər" el misalımızdan çıxış edərək günlərin adlarını dəyişmək üçün variantlarımı yazıram. Qoy çərşənbə axşamı kosa günü, cümə axşamı da keçəl günü adlandırılsın. Çox fikirləşib başımızı ağrıtmağın mənası yoxdur.

**Əsas bunlardır. Elə ki bunları düzəltdik, hətta Qarabağ geri qayıdacaq. Əslində rəsmi təbliğatdan mən belə başa düşürəm ki, Qarabağ da çoxdan bizim əlimizdədir, sadəcə, hökumət təqvimdə normal gün tapmır camaata bu mühüm hadisəni elan etsin. Bəs necə, kim istəyər qələbə bazara düşsün?**

# Məhbusun türmədə ölməsi Ermənistanı qarışdırdı

**İşğalçı Ermənistanda hakim qüvvəyə qarşı yeni və daha sərt etiraz dalğası başlayıb. Bu dəfə motiv siyasi məhbus sayılan 49 yaşlı Artur Sərkisyanın qəfildən həbsxana ölməsi olub. Baş vermiş olaydan dərhal sonra paytaxt İrəvanda sakinlər Azadlıq meydanına toplaşmağa başlayıb.**



## Sərksiyanın ölümü Sərkisyan rejimini böhrana soxdu - düşmən ölkə çalxalanır

### 2 aprel yaxınlaşdıqca işğalçı ölkədə siyasi ehtiraslar artır, atəş səsləri eşidilməyə başlayıb; hərbi müxalifət iqtidarı silahlı çevrilişlə hədələdi; Kremlin dəstəyi Ermənistan prezidentini xilas edəcəkmi? Azərbaycan üçün unikal şans pəncərəsi açılır...

Daha sonra etirazçılar mərkəzi Maştots prospektində yolu bağlayıblar və Ədliyyə Nazirliyinə doğru yürüş təşkil ediblər. Etirazçılar güclü yağış altında İrəvanın mərkəzi küçələrindən keçiblər. Hakimiyyət əleyhinə kəskin şüarlar səsləndiriblər. Qəzet çapa gedərkən Ermənistanda, paytaxt İrəvanda vəziyyət mürəkkəb olaraq qalırdı.

***

Ermənistanda ötən ilin yayında İrəvan Polis İdarəsinin binasını zəbt edən silahlı dəstənin üzvlərini öz şəxsi avtomobili vasitəsi ilə qida məhsulları və dərmanla təmin edən və cinayətkarlarla əlaqədə ittiham olunan Artur Sərkisyan "Sasna Tsrer" hadisələrinə görə də təqsirli bilinirdi. Özünə qarşı ittihamları əsassız sayan müxalifətçi etiraz aksiyası kimi həbsxanada aclıq aksiyası keçirirdi. Məlumata görə, onun halı qəfildən pisləşib. Xəstəxanaya aparılsa da, həkimlər onun həyatını xilas edə bilməyiblər.

Artur Sərkisyanın məhz parlament seçkiləri ərəfəsi ölməsi isə ölkədə siyasi ehtirasları ikiqat kəskinləşdirib. İqtidara qarşı ictimai-siyasi narazılığı daha da gücləndirib. Hakim partiya əleyhinə rəqiblərin əlinə yaxşı kontur-arqument verib. Faktiki surətdə hakim rejimi seçkiöncəsi böhrana soxub, seçki saxtakarlığına hazırlaşan hakimiyyətin manevr imkanlarını bir az da daraldıb.

***

Bu arada hərbi müxalifət iqtidarı hədələyən bəyanatla çıxış edib. Musavat.com-un məlumatına görə, bu barədə "Jamanak" qəzeti yazıb. "Əgər Ohanyan-Raffi-Oskanyan bloku parlamentə düşməsə, Samvel Babayan ("Sasna Tsrer"in fəalı, Qarabağdakı qondarma rejimin keçmiş "müdafiə naziri" - red.) seçkisonrası geniş miqyaslı etirazlara, hətta silahlı üsyan qaldıracaq. Mahiyyət etibarilə "Sasna Tsrer" -2-yə cəhd ediləcək. Özü də təkcə İrəvanda yox, həm də Ermənistanın başqa bölgələrində. Dövlət müəssisələrinin zəbt edilməsi bu inamla həyata keçiriləcək ki, polis və digər güc strukturlarının dəstələri eyni vaxtda bir neçə etiraz ocağına nəzarəti təmin edə bilməyəcək", - deyə nəşr vurğulayıb.

Qeyd edək ki, həbsxanada dünyasını dəyişən Artur Sərkisyan da daxildəki Rusiya əleyhinə hərbi-siyasi düşərgənin təmsilçisi idi. Onları bəzən qərbyönlü qüvvələr də adlandırırlar. Bu qüvvələr Ermənistanın Rusiya vassallığından çıxmasının tərəfdarıdır. Lakin yekcins də deyillər, aralarında silahlı terrorla mübarizə tərəfdarları, Qarabağ məsələsində ən radikal mövqe tutanlar da var, sabiq prezident Levon Ter-Petrosyan kimi mötədillər də.

Yeri gəlmişkən, keçən ilin yayındakı hadisələr vaxtı silahlı qiyamçıları bir çox yerli siyasi partiyalar, media qurumları və ekspert dairələri ilə yanaşı, Rusiyanın Ermənistandakı səfirliyi də müdafiə eləmiş, hakimiyyəti onlara qarşı sərt tədbirlər görməkdən çəkinməyə çağırmışdı. Belə qənaət hasil olur ki, Sərkisyan rejiminə qarşı müqavimətdə, hətta silahlı çevrilişə əslində ABŞ (Qərb) də maraqlı ola bilər. Bu xüsusda seçkisonrası Ermənistanda bu ölkəyə təsir uğrunda Rusiya-ABŞ gizli rəqabətin ən pik həddə çatacağı gözlənləndir.

***

Bir sıra siyasi analitiklər də 2 aprel parlament seçkisində Ermənistanda aranın qarışacağını real sayırlar. O sırada politoloq Elxan Şahinoğluna görə, Serj Sərkisyana qarşı bəzi qrupların hətta silahlı müqavimət göstərməsi də mümkündür. "Ona görə ki, Ermənistanda seçkinin saxtalaşdırılması və inzibati resurslardan istifadə imkanları böyükdür. Ötən ilin yayında İrəvanda silahlı qrup polis məntəqəsini ələ keçirərək, qanun keşikçilərini girov götürmüşdü, ölən və yaralanan oldu. Ermənistanda əllərdə başqa silahlar da var. Misal üçün, seçkiqabağı mitinqlərin birində keçmiş müdafiə naziri Seyran Ohanyana atəş açdılarsa, seçkidən sonra başqa silah səslərinin eşidilməsi ehtimalı da yüksəkdir", - deyə ekspert qeyd edib.

Bəs, Kremlin dəstəyi Moskvadan təzəcə qayıdan və məmnun kimi görünən Sərkisyanı xilas edə biləcəkmi? Əsas sual da budur. Məsələnin başqa bir önəmli tərəfi isə əlbəttə ki, Qarabağla bağlı Azərbaycan üçün açıla biləcək şans pəncərəsi ilə bağlıdır. Çünki Ermənistanda daxili qarışıqlıq, hətta silahlı qarşıdurma işğal altındakı torpaqların daha böyük qisminin azad edilməsi üçün unikal fürsət yaradır.

Təsadüfi deyil ki, Sərkisyanın aprel ərəfəsi Moskvaya səfər etməsinin bir hədəfinin də Rusiyanın əli ilə Azərbaycanı "sakit oturmağa" vadar etmək olduğu deyilir. Yəni atəşkəsin pozulmayacağına zəmanət məsələsi. Belə bir zəmanət də Moskva səfəri zamanı Ermənistan prezidentinə verilibmi?

**Cavabı bilmək üçün çox gözləmək lazım gəlməyəcək.**

❑ Siyasət şöbəsi

# Hollandiyadan Türkiyə ilə bağlı gözlənilməz qərar - aksiyaya icazə verildi

**Hollandiyanın Rotterdamın bələdiyyə sədri Əhməd Abutalib Niderland polisinə etiraz etmək üçün keçiriləcək nümayişə icazə verib.**



Avropa.info xəbər verir ki, Rotterdam Bələdiyyə sədri Əhməd Abutalib bu həftənin sonunda Niderland polisinin türk nümayişçilərə qarşı tətbiq etdiyi şiddətə etiraz etmək üçün nəzərdə tutulan nümayişə icazə verib.

Rotterdam bələdiyyəsinin rəsmisi Lennart de Jong cümə günü keçirilməsi planlaşdırılan nümayişlə bağlı nümayişin türklərin hüquqlarını qorumaq üçün ediləcəyinin deyildiyini söyləyib.

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017



# “ABŞ-Türkiyə yaxınlaşması hər iki ölkə üçün faydalı olacaq”

**Türkiyə-ABŞ münasibətlərinin yaxın zamanda istiləşəcəyi gözlənilir. Belə ki, ABŞ-ın dövlət katibi Reks Tillerson Ərdoğanla danışıqlara başlamaq üçün Türkiyəyə səfər edəcək. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib. O, qeyd edib ki, ABŞ rəsmisinin səfəri martın 30-da baş tutacaq. Vaşinqtonun diplomatik rəsmiləri hələlik bu məlumatla bağlı hər hansı açıqlama verməyiblər.**

## **Arzu Nağıyev:** “Avropa və Türkiyə arasında yaranan gərginlikdən ABŞ məharətlə istifadə etməyə çalışacaq”
## **Qabil Hüseynli:** “Bütövlükdə Türkiyənin gələcəyi və nicatı onun Qərblə münasibətlərindən asılıdır”

**Türkiyə XİN rəhbəri isə müsahibəsində təklifin Reks Tillerson tərəfindən gəldiyini deyib:** “ABŞ-ın dövlət katibi martın 30-da Türkiyəyə gəlmək istədiyini söylədi və mən də bunun uyğun vaxt olduğunu dedim. Əgər həmin gün baş nazirimiz Ankarada olsa, ABŞ-ın dövlət katibini qəbul edəcək”.

Vaşinqtonun diplomatik rəsmiləri hələlik bu məlumatla bağlı hər hansı açıqlama verməyiblər. Yalnız ABŞ-ın “Al Monitor” saytı da R.Tillersonun Türkiyəyə səfər edəcəyini bildirib. Saytın məlumatına görə, Reks Tillerson Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanla, habelə XİN rəhbəri Mövlud Çavuşoğlu ilə görüşəcək.

Ekspertlər də iki ölkə arasındakı münasibətlərin yaxşılaşacağına ümid edirlər.

**Politoloq Arzu Nağıyev** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, iki ölkə arasındakı münasibətlərin gərginləşməsində elə də əsaslı səbəblər yox idi: “Türkiyə və ABŞ münasibətləri heç vaxt elə gərgin də olmamışdı. Sadəcə olaraq müəyyən vaxt kəsimində anlaşılmazlıq yaranında siyasətçilər bəyanatlarla çıxışlar etmişdilər. Bu əsasən FETO məsələsi ilə ,daha doğrusu Fətulla Gülənin Türkiyəyə ekstradisiyası ilə bağlı məsələ idi. Digər problemli məqam Türkiyənin Rusiya ilə bir koalisiyada təmsil edilməsi idi, bu da əsasən Suriyada birgə əməliyyatlar zamanı yarandı, lakin artıq bu əməliyyatlarla bağlı müəyyən narazılıqlar da var. Üçüncü məqam Rusiya vasitəsilə İranın da bu koalisiyaya qoşulması istəyi idi, lakin sonradan bunun ABŞ -a xoş getməyəcəyi və gələcəkdə problemə çevriləcəyi anlamına gəlindi. Hazırda isə Avropa və Türkiyə arasında yaranan gərginlikdən ABŞ məharətlə istifadə etməyə çalışacaqdır. Türkiyə NATO-nun üzvüdür, ABŞ-ın regionda bir nömrəli tərəfdaşıdır, yəni Türkiyə bu gün ABŞ üçün çox vacib tərəfdaşdır və referendum öncəsi bunu bir daha təsdiq etməyə çalışacaq. Eyni zamanda ABŞ da Türkiyə üçün önəm kəsb edir və Amerika qitəsinə çıxış üçün bütün istiqamətlərdə ən əlverişli tərəfdaşdır. Yaxın Şərqdə Türkiyənin İsrail, Səudiyyə Ərəbistanı və digər ABŞ-ın tərəfdaşları ilə normal münasibətləri var. Yəni bütün bu amillər hər iki dövlət arasında gələcək perspektivlərin müsbət bir tendensiya üzərində qurulacağından xəbər verir”.

**Politoloq Qabil Hüseynli** isə “Yeni Müsavat”a açıqlamasında qeyd etdi ki, ABŞ-la münasibətlərin yaxşı olması Türkiyənin xeyrinədir: “Amerika- Türkiyə münasibətləri həmişə yüksək səviyyədə olub. Bu ikili münasibətlərin yaxşı olmasından hər iki tərəf yararlanıb. Ancaq hesab edirəm ki, münasibətlərin yaxşı olması Türkiyə üçün daha əhəmiyyətlidir. Çünki vaxtilə SSRİ tərəfindən İkinci Dünya Müharibəsindən sonra Türkiyə Sovetlərin şantaj və təhdidlərinə məruz qaldığı zaman onun köməyinə çatan ilk ölkə ABŞ və ABŞ-ın köməyi ilə Türkiyənin NATO-ya qəbul olunması olmuşdu. Son vaxtlar bu iki ölkənin münasibətlərində yaranan gərginlik bir qədər süni xarakter daşıyırdı. Çünki Türkiyədəki siyasi qüvvələr 15 iyul FETO-çuların dövlət çevrilişə cəhdində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin əli olduğunu iddia edirdilər, ABŞ əleyhinə mətbuatda müxtəlif bəyanatlar dərc edirdi. Fətullah Gülənin Türkiyəyə verilməsini də təkidlə tələb edirdilər. Ancaq Fətullah Gülənin Türkiyəyə verilməsini tələb etməkdə də Türkiyə müəyyən yanlışlıqlara yol vermişdi”.

**Politoloqun sözlərinə görə, ABŞ-da belə işləri prezidentlər deyil, müstəqil məhkəmələr həyata keçirir:** “Məhkəmələr də bu qərarı qəbul etmək üçün yetərli dəlil-sübutlar tələb edirlər. Türkiyə isə bunu təqdim edə bilmədi. Türkiyənin Rusiyaya meyllənməsi, bu ölkə ilə münasibətlərini düzəltməyə çalışması da bu məsələdə rol oynadı. Jirinovski də mətbuata şayiə xarakterli açıqlama verdi ki, guya Ərdoğan ona deyib ki, Türkiyə mütləq şəkildə NATO-dan çıxacaq. Bundan sonra isə Rusiya ilə strateji əməkdaşlıq daha da güclənəcək. Türkiyənin normal və ənənəvi inkişafını mən hər zaman NATO ölkələri, Avropa, ABŞ ilə münasibətlərin yaxşı olmasında görmüşəm. Mən arzu edərdim ki, Türkiyə siyasi liderləri pafoslu bəyanatlar verməyə çox da meyllənməsinlər. Özlərini Qərb dünyanın bir hissəsi kimi hiss etsinlər. O ölkədə belə bir meyl var ki, biz üzümüzü İslam dünyasına da çevirə bilərik. Lakin Türkiyə Avropa ölkəsidir, orada Qərb dəyərləri bərqərar olub. Doğrudur, son zamanlar bu xətdən sapmalar var. Amma bütövlükdə Türkiyənin gələcəyi və nicatı onun Qərblə münasibətlərindən asılıdır”.

❑ **Nərgiz LİFTİYEVA**

# Türkiyə Rusiyadan taxıl idxalını dayandırıb

**Türkiyə taxıl idxalına lisenziya verilməsi siyahısından gözlənilmədən Rusiyanı çıxarıb. “Report”un “Reuters”ə istinadən verdiyi məlumata görə, bu, Rusiya taxılı üçün həcminə görə ikinci bazarda tədarük payının azalmasına ciddi şəkildə təsir göstərəcək.**

Məlumata görə, martın 15-dən başlayaraq Türkiyə hökumətinin idxal üçün verdiyi yeni lisenziyalar siyahısında Rusiyanın adı qeyd edilməyib. Bu, Rusiya taxılının de-fakto olaraq Türkiyəyə idxalını mümkünsüz edir. 2016-cı ilin iyul ayından 2017-ci ilin yanvar ayınadək Türkiyə Rusiyadan 1,9 mln. ton taxıl alıb.

“Bu, Rusiya taxılı üçün Türkiyə bazarını faktiki bağlaya bilər. Belə ki, idxal sxeminə daxil olmayan ölkələrin mallarına 130 faizlik rüsum tətbiq edilir”, - deyə məlumatda qeyd edilib.

Hələlik heç bir ölkənin müvafiq sahə üzrə qurumları məsələni şərh etməyiblər.

**Qeyd edək ki, 2015-ci ildə Türkiyə ilə Rusiya arasında yaranan gərginlik hər iki ölkənin iqtisadiyyatına təsir göstərib. Rusiya Türkiyədən əsasən meyvə-tərəvəz, göyərti idxalını qadağan etmişdi. Bundan əlavə, Türkiyədən pomidor və digər bəzi növ məhsulların idxalı dayandırılıb.**

# Bakıdan aprel mesajı



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Paytaxtda V Bakı Qlobal Forumu keçirilir. Budəfəki tədbir öncəliklə həssas bir dönəmə təsadüf edir və olduqca mürəkkəb beynəlxalq münasibətlər şəraitində, həmçinin regiondakı təhlükəli durum fonunda Azərbaycanın yerinə və nüfuzuna əlavə pozitiv ştrixlər gətirə bilər.**

Ən azı, ölkəmizin əsas dərdini - Qarabağ məsələsini daha böyük auditoriyaya çıxarmaq üçün bu, növbəti və unikal fürsət hesab edilə bilər. Çünki tədbir iştirakçıları olan qonaqlar, yüksək çinli rəsmilər müxtəlif ölkələri, fərqli sivilizasiyaları təmsil edir. Onlar qayıdarkən özləri ilə birgə istət-istəməz Azərbaycan həqiqətini də aparacaqlar. Ölkəmizin üzləşdiyi ədalətsizliyə qarşı müəyyən etirazla yüklənib gedəcəklər. Söhbət ilk növbədə Qarabağ ixtilafından gedir.

Forum dünyada sülhün və təhlükəsizliyin əsas qarantı kimi aparıcı dövlətlər və beynəlxalq təşkilatların roluna bir daha diqqət yönəldib. Dağlıq Qarabağ kimi problemi olan Azərbaycandan ötrü bu məqam təbii ki, mühüm önəm daşıyır. Çünki Qarabağ düyünü on illərdir məhz beynəlxalq təşkilatların və güc mərkəzlərinin yetərli iradə ortaya qoymaması, bir çox hallarda isə Azərbaycana qarşı ikili standart siyasəti yürütməsi nəticəsində açılmır.

Səbəblər barədə çox yazılıb. Onlardan yalnız birinə toxunacağıq. Paradoks ondadır ki, nə qədər deyilsə də ki, Dağlıq Qarabağ məsələsi - milli və ya dini məsələ deyil, amma gerçəkdə bir sıra Qərb paytaxtları problemə həm də bu prizmadan baxır, xristian təəssübkeşliyi özünü vaxtaşırı büruzə verir. Əks halda, bunu necə izah eləmək olar ki, Krımın ilhaqına görə Rusiyaya, Krım rəhbərliyinə qarşı sanksiyalar tətbiq edən, Abxaziya və Cənubi Osetiyanın işğalına görə Rusiyanı öz adı ilə - təcavüzkar kimi çağıran Qərb Ermənistana gələndə tam əks mövqe sərgiləyir, beynəlxalq hüququn təməl prinsiplərinə hörmətsizlik göstərir, bir ovuc erməni üçün “öz müqəddəratını təyinetmə” haqqı istəyir?!

İş də ondadır ki, artıq kimsədə şübhə qalmayıb ki, əgər Qarabağdakı separatçı rejimin erməni başçıları xristian yox, müsəlman olsaydı, onların üzünə Qərb dövlətlərinin girişi, qapıları çoxdan bağlanmışdı. Amma diqqət edin, quldur Bako Saakyan rahatca ABŞ-a, Avropa ölkələrinə, Yunanıstana gedir, orada sərbəst şəkildə görüşlər keçirir, Azərbaycan əleyhinə, ölkəmizin suverenliyi və ərazi bütövlüyü əleyhinə cəsarətsiz şəkildə təbliğat aparır. Biz hələ qondarma “DQR”-in bir çox xristian ölkələrində qanunsuz nümayəndəliklərinin fəaliyyət göstərməsini demirik. Halbuki, Krımın separatçı lideri Sergey Aksyonova qarşı sərt qadağalar mövcuddur. O, Avropanın, Amerikanın ərazisinə daxil ola bilməz, yoxsa dərhal saxlanılar.

Bu mənada Bakı toplantısı dünyadakı belə neqativ stereotipləri dağıtmaq baxımından az əhəmiyyət kəsb eləmir. Avropada ksenofobik və islamofobik dalğanın güclənməsi, bu günlərdə Avropa Məhkəməsinin iş yerlərində hicabın yasaqlanmasını qanuni sayması fonunda Azərbaycanın bir daha dünyaya pozitiv rakursdan açılması milli maraqlarımız baxımından çox vacibdir.

Sözsüz ki, sırf özümüzdən asılı olan problemlər də var və sözümüzün kəsrli olması üçün onlar təcili yoluna qoyulmalıdır. Bura təməl insan haqları ilə bağlı məsələlər, hələ də həllini tapmayan siyasi dustaq problemi, söz-ifadə azadlıqları sahəsində yaşanan problemlər, korrupsiya və monopoliyanın geniş miqyas alması aiddir. Sadalanan problemləri ən əvvəl ona görə aradan qaldırmaq lazımdır ki, ermənilər və onların dünyadakı havadarları bu problemlərdən ölkəmiz əleyhinə, Qarabağ əleyhinə təbliğatda məharətlə istifadə edirlər.

Düşmənin əlinə tutaraq verməyə son qoymaq zamanı çatıb. Bu xüsusda özümüzün özümüzə inanması, arxayın olması və təsəlli verməsi yetərli deyil, gərək ki, dünyanı da özümüzə inandıra bilək, dünyadan da təsəlli alaq. Ətrafımızdakı bu qəliz və ədalətsiz vəziyyətdən isə yalnız milli barışığı təmin eləmək, dünyaya daha güclü və demokratik qiyafədə açılmaqla çıxmaq mümkündür...

Nəhayət, Bakı Forumu 4 günlük aprel müharibəsinin ildönümü ərəfəsinə təsadüf eləməsi ilə də əhəmiyyətli sayıla bilər. Düşmənin aprel olaylarının təkrarlana biləcəyindən dolayı təlaş yaşadığı indiki dövrdə Azərbaycanın növbəti uğurlu lokal hərbi əməliyyatı üçün siyasi-diplomatik zəmin hazırlanmasını deyirik.

**Bakıdan dünyaya bir mesaj da elə budur ki, ərazisinin 20 faizi işğal altında olan Azərbaycanın ən sərt vasitəyə əl atması anlaşıqlı qarşılansın. Bunu Bakıdan dünyaya aprel mesajı da adlandırmaq olar.**

# Hökumət deputatların gözlənilməz etirazı ilə üzləşdi - sərt tənqidlər

## Milli Məclis üzvlərindən illik hesabata kəskin reaksiya: “Bazarlar od tutub yanır”; “Banklar vətəndaşı soyur”; “Millətin belini qırırıq”; “Bu məsələlərdə hökumətmizin günahı var. Biz bunu deyəndə qəbahətmi olur?”

**Martın 17-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti iclası keçirildi. İclas hökumətin hesabatına həsr olunduğu üçün Baş nazir Artur Rasi-zadənin rəhbərliyi ilə Nazirlər Kabinetinin üzvləri də müzakirələrə qatılmışdı.**



**Spiker 2016-cı illə bağlı hesabatın vaxtında parlamentə daxil olduğunu dedi. Həmçinin Azərbaycan iqtisadiyyatının ötənilki durumu ilə bağlı məlumat verdi:** “ÜDM istehsalında qeyri-neft sektorunun payı 63,4 faiz təşkil edib. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının ”doing biznes" hesabatında işgüzar mühitin əlverişliliyinə görə Azərbaycan 190 ölkə arasında 65-ci yerdə qərarlaşıb. Dörd göstərici üzrə Azərbaycan ilk pillələrdə yer alıb. Ötən il sosial infrastruktur layihələrinin həyata keçirilməsinə 15 milyard manat vəsait yatırılıb".

**Milli Məclisdə 2016-cı il dövlət büdcəsinin icra vəziyyəti ilə bağlı hesabatını təqdim edən Baş nazir Artur Rasi-zadə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı yeni təyinatı ilə əlaqədar təbrik etdi. Baş nazir bu təyinatı yüksək qiymətləndirdi:** “Fürsətdən istifadə edib ölkənin birinci xanımı Mehriban xanım Əliyevanı Azərbaycanın birinci vitse-prezidenti təyin olunması ilə əlaqədar təbrik edirəm və ona yüksək dövləti vəzifəsinin icrasında müvəffəqiyyətlər arzulayıram”. A.Rasi-zadə ötən ilin aprel döyüşlərindən də bəhs etdi. “2016-cı ilin aprel döyüşləri ölkəmizin şərəf səhifəsidir. Bu, uzunmüddətli sülh danışıqlarından başqa hərb variantının da mövcud olduğunu ortaya qoydu. Həmçinin bu hadisələr Azərbaycan əsgərinin qələbə əzmini nümayiş etdirdi”. Baş nazir Azərbaycan prezidentinin 2016-cı ilin dərin iqtisadi islahatlar ili kimi dəyərləndirdiyini və islahatların davamı üçün qaşıya vəzifələr qoyduğunu bildirdi. Sonda o, Novruzla bağlı təbriklərini çatdırdı, ölkəyə bərəkət arzuladı.

“Məndə olan məlumata görə, Novruz bayramında təkcə İrandan Azərbaycana 500 avtobus turist gələcək. İran tərəfdə isə bir növbəli 8 saatlıq iş vaxtı müəyyənləşib. Belə olan halda, görün ki, orada nə cür pis vəziyyət yaranacaq. İnsanlar günlərlə gömrükdə qalacaqlar. Bu da turistlərdə hələ ölkəyə daxil olmamış pis təəssürat yaradacaq”.

**Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli** bu fikirləri parlamentdə hökumətin iştirakı ilə keçirilən iclasda bildirdi. Əlavə etdi ki, ona görə də gömrükdəki zəruri məsələnin həlli üçün Azərbaycvan hökumətinin qonşu ölkənin müvafiq qurumları ilə tədbirlər görməsi çox yaxşı olardı. Bakı-Astara yolu ilə bağlı acınacaqlı durumdan bəhs edən H.Rəcəbli problemin aradan qaldırılması zərurətindən danışdı.

**Deputat Musa Qasımlı** təmsil olunduğu dairənin problemlərindən danışdı: “Yardımlı rayon əhalisi Yardımlı şəhər mərkəzinə bitişik kəndlərin, o cümlədən qaz boru kəmərlərinin tikintisi üçün relyef baxımdan çətinlik törətməyən ərazidə yerləşən Osnağaran-Anzov-Hamarkənd-Abasabad və başqa kəndlərin qazlaşdırılmasını əhali "Azəriqaz" rəhbərliyindən səbirsizliklə gözləyir. Yardımlı rayonunda kənd yollarının tikintisi işlərini uğurla həyata keçirdiyi üçün “Azəravtoyol”un sədri hörmətli Saleh Məmmədova təşəkkür edirəm. Eyni zamanda Yardımlı-Bozayran-Bürzümbül-Bilnə-Vərgədüz yolunun asfaltlanmasını da xahiş edirəm". M.Qasımlı bundan sonra Yardımlı və Masallı arasındakı yeganə yolun dağılması ilə bağlı da hökumətdən yardım istədi: “Yardımlı-Masallı avtomobil yolu əsası qoyulandan bəri heç bir zaman normal asfalt görməyib. Yalnız cənab prezidentimiz İlham Əliyev Yardımlıya ilk dəfə səfər edərkən əhaliyə böyük bir hədiyyə etdi. Yardımlı-Masalı avtomobil yolu müasir bir asfalt gördü. Lakin bu yol hansısa şirkətin dağları yarıb Ələt-Astara avtomobil yoluna material daşıması nəticəsində yol bərbad hala düşüb. Düzdür, yol tikintisini həyata keçirən şirkət yolu sonda asfalt edəcəyini öhdəlik kimi üzərinə götürsə də, bu iş indiyə qədər görülməyib. Seçicilərin cənab prezidentimizin Yardımlı sakinlərinə olan hədiyyəsini müvafiq şirkətin layiqli bir şəkildə bərpa edəcəyini gözləyir”.

**Deputat Əflatun Amaşov** seçicilərinin problemlərindən bəhs etdi: “Təsəvvür edin ki, deputatı olduğum Saatlı rayonu üzrə 60 ali təhsilli həkim, 100-ə yaxın tibb bacısı yeri boşdur. Bu rəqəmlər çox düşündürücüdür. Məndə olan məlumatlara görə, başqa yerlərdə də demək olar, oxşar mənzərə müşahidə edilməkdədir. Təsəvvür edin ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayondakı şöbəsində burun-boğaz-qulaq həkimləri belə kənardan gətirilir. Vəziyyət belə davam etsə, 10-20 il sonra nələrin baş verəcəyini düşünmək sadəcə qorxuncdur. Hesab edirəm ki, Azərbaycan hökuməti məsələyə xüsusi diqqət yetirməlidir”.

**Ə.Amaşov dedi ki, ƏDV-nin tətbiqi medianın iqtisadi durumuna mənfi təsir göstərməkdədir:** “KİV məhsullarının ƏDV-yə cəlb edilməsindən əldə edilən gəlir elə də yüksək deyil. Cəmi yarım milyon manat. Bu, cüzi rəqəmdir. Belə olan halda medianın istisadi durumu və onun yerinə yetirdiyi ictimai missiya nəzərə alınmalıdır. Mən bir daha təklif edirəm ki, mətbuatın indiki durumunu nəzərə alaraq ölkəyə gətirilən qəzet kağızı və hazır çap məhsulları üzərindən əlavə dəyər vergisi aradan qaldırılsın. Hər kəsi bu təklifimi dəstəkləməyə çağırıram”.

“2016- ci ildə yaranmış vəziyyətdən çıxmaq üçün bir sıra tədbirlər görülüb. Beynəlxalq Valyuta Fondu ötən il iqtisadiyyatımızda 2,5 faiz artım olacağını proqnozlaşdırmışdı. Ancaq hökumət bu rəqəmi 1,8 faiz olacağını vurğulamışdı. Amma təəssüf ki, ötən il artım əvəzinə 3,1 faiz enmə müşahidə olunub. İlk növbədə islahatlar xalqa çatdırılmalı və onlar tərəfindən dəstəklənməlidir. Bunun üçün İTV-də Rusiyada olan biznes kanalı formasında olan bir blok yaradılsın və əhali iqtisadi proseslərlə bağlı məlumatlandırılsın. Rayonlarda yeni iş yerlərinin açılması istiqamətində işlər görülməlidir”. Bu fikirləri **deputat Əli Məsimli** söylədi.

**Deputat Fərəc Quliyev** isə xərclənmələrə həssas yanaşmağı zəruri saydı: “Elə nazirliklər var ki, təmir işlərinə on milyonlarla vəsait sərf edirlər. Hansı ki, bu qədər vəsaitə üç kənd salmaq olar. Xahiş edirəm vəsaitlərin qənaətlə xərclənməsi məsələsinə ciddi diqqət yetirilsin. Biz müharibə aparan dövlətik”.

**Deputat Fəzail Ağamalı** isə hökumətin diqqətini bazarlardakı bahalığa çəkməyə çalışdı: “Bazarlar od tutub yanır. Ətin, tərəvəz məhsullarının, digər ərzaq mallarının qiyməti durmadan qalxır. Mövcud problemlərin həlli üçün təcili tədbirlər görülməlidir. Ölkədə maliyyə çətinlikləri var”.

**Deputat Siyavuş Novruzov** isə “Vətəndaşların əziyyət çəkməməsi üçün süni qiymət artımının qarşısı alınmalıdır. Məsələn, banklar dollar depozitini 3 faizlə götürür, vətəndaşa 24 faizlə verirlər” - deyə qeyd etdi: “Vətəndaşın bu kreditləri qaytarması çətindir. Onlar hansısa əsasla bunu edirlər. Vətəndaşı soymaq olmaz, belə olanda vətəndaş hüquq-mühafizə orqanları ilə qarşı-qarşıya qalır. Prezident İlham Əliyevin dediyi kimi, hər şey vətəndaş üçün olmalıdır. Vətəndaşı niyə qorumamalıyıq”. Deputat ardınca struktur islahatları ilə bağlı fikirlərini açıqladı: “Azərbaycanda bu gün 18-19 nazirlik var. Ancaq bəzi nazirliklərinin regional idarələri mövcuddur. Ölkənin nazirliyi hökumətin strukturudur. Əgər lazımdırsa, nazirliklərin hamısının regional idarələri yaradılsın. Kimsə axşam yatıb səhər durub deyir ki, mən öz struktrumun regional idarələrini yaratdım”.

**Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə** isə Tarif Şurasını tənqid etdi. Bildirdi ki, Tarif Şurasının ötən ilin noyabr ayında verdiyi qərar seçildiyi Neftçala rayonundakı yod-brom zavodunun fəaliyyətini iflic edib.

**Deputat Naqif Həmzəyev** Gəncə-Naxçıvan aviareysinin bağlanmasına, o cümlədən hava limanlarında Gəncə adının hələ də “Kirovabad” kimi qeyd olunmasına narazılığını bildirdi.

**Deputat Sahib Alıyev** cəbhə bölgəsində yerləşən Tərtərin problemləri ilə bağlı hökumətə müraciət etdi. Həmçinin Tərtərin yetirməsi olan, erməni terrorçuları tərəfindən qətlə yetirilən və Tiflisdə dəfn edilən keçmiş daxili işlər naziri Beyhbud Ağa Cavanşirin 170 illiyi ilə bağlı təkliflərini verdi.

**Deputat Tahir Kərimli** Quba-Şamaxı yolu ilə bağlı problemlərin həllinə çağırdı. Deputat Ağsu yolu ilə bağlı acınacaqlı durumun aradan qaldırılması üçün işlər görməyə çağırdı.

Deputat məktəblərdə kişi müəllimlərin çatışmaması ilə bağlı problemdən də danışdı.

**Deputat Yevda Abramov** da problemlərdən danışdı: “Bu gün məni yenə də narahat edən bu başı batmış valyutadır. Samir müəllim, Elman müəllim, Rüfət müəllim, satışla alış arasında heç vaxt bu qədər fərq olmayıb! Bununla bu millətin belini qırırıq. Banklar bədbəxt oldu, bir neçə nəfər tutuldu, sonra nə oldu? Bir qrup insan bizə mane olur, onlar kimlərdir, mən bilmirəm. Bunlara son qoymaq lazımdır”.

“Daha almadan danışmayacağam, alma sözünü dilə gətirməyəcəyəm. Azərbaycanın albalı şirəsi, üzüm yarpağı da valyuta qazandıra bilər”-deyə, əlavə etdi.

**Y.Abramov ardınca həmkarlarına üz tutdu verdi:** “Deputatlara qarşı da iradlarım var, müsahibə verirlər ki, aprelin 15-nə kimi 6 vitse-prezident seçiləcək. Adları adlandırmaqla ya kadrlarımızı vurur, ya da onları gözə soxurlar. Bu barədə yalnız prezident qərar verə bilər”. “Mən bir dəfə görmədim ki, bizim bu maliyyə triosunun nümayəndələri televiziyaya çıxıb sadə dillə xalqa vəziyyəti izah etsinlər”.

“Mən 28 May ətrafında yaşayıram. Bir aydan artıqdır ki, oradakı binaları üzləyirlər. Binanın yola baxan hissəsi üzlənir, digər hissəsi isə təmir olunmur. Adam düşünür ki, bu binalar niyə belə ikiüzlüdür?” Bu fikirlər isə **deputat Zahid Oruc**a məxsusdur. O, hökumətin fəaliyyəti ilə yanaşı, həm də nəzarət funksiyasını icra etməli olanları tənqid etdi: “Sonra da deyirik ki, iki nazrilik ətarfında cinayətrlər baş verib. Bəs, biz onda hardaydıq? Bu parlamentdə olmuşuq. Biz on illərdir bu parlamentdəyik. Banklara görə yüz minlərlə insan məhkəmə çəkişmələrindədir. Mərkəzi Bank öz ehtiyatında olan 15 milyarddan 10 milyardını xərcləyib, üztəlik kredit götürmüş vətəndaşın da vəziyyəti ağırlaşıb. Ümumilikdə dövlətin 20 milyard manat vəsaitini xərcləməklə manatın kursunu saxlamaq mümkün olmadı. Bu məsələlərdə hökumətmizin günahı var. Biz bunu deyəndə qəbahətmi olur?” **Z.Oruc daxili istehsalın az faizdə olmasına da diqqət çəkib:** “Bizdə istehsal olunan yağın 40 faizi, makaron və un məmulatlarının 50 faizi xaricdən gəlir. Halbuki bunun mühüm bir hissəsini daxildə istahsal etmək mümkün idi”. Ardınca “Bakı və Abşeron yarımadası ərazimizin 10 faizini təşkil edir. Amma əhalimizin 40 faizi burada məskunlaşır”-deyə, real durumdan bəhs etdi. Z.Oruc sonra üzünü Baş nazirə tutdu: “Hörmətli Artur müəllim, yeni baş nazir nə vaxt, kim təyin olunacaq, bunu cənab prezident bilir. Amma yeni baş nazir sizin müsbət xüsusiyyətlərinizi qoruyub-saxlasa, bu, dövlətin xeyrinə olacaq”.

**Deputat Musa Quliyev** dərman preparatlarının ölkəyə gətirilməsi ilə bağlı təklif irəli sürdü. Dedi ki, həyati vacib olan 300 və ya 500 adda dərman preparatlarının ölkəyə gətirilməsini dövlət üzərinə götürməlidir: “Qalan preparatlar isə sərbəst şəkildə gətirilsin. Bu gün valyuta bazarında baş verənlər dərmanların qiymətinə təsir edir”.

**Deputat Elman Nəsirov** Ağdaşdakı Qarabağ əlili və şəhid ailəsi olan şəxslərin problemlərinin həlli üçün xahiş etdi.

**Deputat Qənirə Paşayeva** tələbə yataqxanalarının olmaması problemindən bəhs etdi: “18 min tələbəsi olan Bakı Dövlət Universitetinin bir dənə tələbə yataqxanası yoxdur. Ailələr övladlarına yemək, geyinmək xərcimi versin, yoxsa kirayə xərci versin? Bakıda kirayə haqlarının nə qədər baha olduğunu da hər kəs bilir. Ona görə də xahiş edirəm hökumət bu məsələyə diqqət ayırsın”.

**Ardınca xanım deputat nazir Ramin Quluzadəyə xitabən ictimai nəqliyyatdakı problemlərdən danışdı:** “Bir neçə gün bundan əvvəl Bakı-Sumqayıt yolunda qanunsuz ictimai nəqliyyatın başımıza gətirdiyi fəlakəti hamımız gördük. Ona görə də bu sahəyə diqqət ayırmağa ehtiyac var”.

**Bundan sonra spiker dedi ki, 28 deputat çıxış edib, hamı hesabatı məqbul hesab edib. Parlament hesabata səs verdi və iclas bitdi.**

❑ **Elşad PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017



# Ermənistan hədəfinə çatmayacaq - düşmənin aprel təlaşı

Aprel sammitində "Rus NATO-su" rəhbərliyinə erməni generalın gətirilməsi məsələsi yenə də ertələnə bilər; **rusiyalı hərbi ekspert:** "Ermənistan nümayəndəsi bu dəfə də KTMT baş katibi olmayacaq"; **azərbaycanlı politoloq:** "Aprel işğalçı ölkə üçün ağır keçəcək..."

**Üzümüzə gələn ayda - apreldə 4 günlük müharibənin birinci ildönümü ilə yanaşı, Qarabağ məsələsinə dəxli olan daha iki hadisə gözlənilir. Onlardan biri işğalçı Ermənistandakı parlament seçkiləri (2 aprel), digəri isə "Rus NATO-su" adlandırılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) yeni baş katibinin gətirilməsi məsələsidir.**




Gözlənildiyi kimi, Moskvadakı aprel sammitində həmin vəzifəyə rotasiya qaydasında Ermənistan nümayəndəsi təyin olunmalıdır. Məlumdur ki, bu təyinat üç dəfə ertələnib. Daha çox da KTMT-də Azərbaycanın dostları - Qazaxıstanın və Belarusun tutduğu prinsipial mövqe hesabına İrəvan öz istəyinə nail ola bilməyib. Əslində Rusiyanın özü də Azərbaycan və Türkiyəni qıcıqlandırmamaq məqsədilə belə bir təyinatı arzulamır.

***

Bəs, qurumun budəfəki, aprel Moskva toplantısında nə gözlənilir, ermənilərin arzusu çin ola bilərmi? Bir sıra ekspertlər bu xüsusda erməniləri sevindirəcək qədər nikbin deyillər. Məsələn, müsavat.com-un məlumatına görə, bu mövzuda erməni nəşri "168 jam" nəşrinə danışan rusiyalı tanınmış hərbi ekspert Pavel Felqenqauerə görə, qarşıdakı toplantı də Ermənistanın ngözləntiləri baxımından nəticəsiz başa çata bilər.

Onun sözlərinə görə, səbəb KTMT-nin monolit qurum olmaması ilə bağlıdır. "Təşkilat üzvləri bir-birinin təhlükəsizliyinə laqeyddir. Qurumda belə bir mürəkkəb vəziyyət yaranıb. Ermənistan bloka Rusiyanın xətrinə girib. Bununla belə, hər bir üzv dövlət əgər onun sərhədlərinə qəsd olarsa, KTMT-yə müraciət eləmək imkanına malikdir. Söhbət Ermənistandan gedirsə, bu halda Qazaxıstan və Belarus olmasa belə, Rusiya KTMT-nin avtoritetini qorumaq və Rusiya-Ermənistan strateji əlaqələri naminə vəziyyətə reaksiya verməli olacaq", - deyə ekspert qeyd edib.

Felqenqaurun fikrincə, Qazaxıstan üçün Dağlıq Qarabağ məsələsi vacibdir: "Nazarbayev təbii ki, Azərbaycanla yaxşı əlaqələrin dinamikasını saxlamağa çalışır. Çünki tərəflər arşında biznes-maraqlar üstünlük təşkil edir. Məhz bu səbəbdən də hər dəfə KTMT-yə Ermənistan nümayəndəsinin təyin edilməsi təxirə salınır. İstisna deyil ki, Qazaxıstan yenə bu təyinatı əngəlləyəcək. Moskva Ermənistana xoş gəlmək üçün Astanaya təzyiq edə bilər. Ancaq bu gün Rusiya üçün Qazaxıstan da Suriya məsələsində oynadığı xüsusi rola görə mühüm tərəfdaşdır. Yəni Putin Ermənistana görə Nazarbayevin xətrinə dəyməz. Ermənistanın da xətrinə dəyməməyə çalışacaq. İndilikdə Rusiya hökumətinin KTMT-də işləri qaydaya salmaq üçün, belə görünür, vaxtı yoxdur".

**Bu üzdən analitik KTMT-nin növbəti sammitində də məsələnin Ermənistana xeyrini həll olunacağını güman eləmir:** "Ermənistan nümayəndəsi bu dəfə də KTMT baş katibi olmayacaq". Lakin Felqenqaeur əmindir ki, Rusiya erməni tərəfinin narazılığını yumşaltmağa səy edəcək və həmin narazılığı bu və ya başqa sferada "kompensasiya" edəcək".

***

Söhbət yəqin ki, Kremlin hərbi-texniki və ya iqtisadi-maliyyə xarakterli hansısa köməyindən gedir. Hər necə olmasa, Rusiya satellit Ermənistan daxilində özünə qarşı narazılığın artmasında da maraqlı deyil. Bundan əlavə, rəsmi İrəvan yaxşı bilir ki, məsələdə Kreml iradə ortaya qoyarsa, "Rus NATO-su"na rəhbərlik Ermənistan təmsilçisinə keçə bilər. Moskva bu iradəni göstərəcəkmi? Bir az gözləyək.

Maraqlıdır ki, KTMT-nin növbəti toplantısı ərəfəsində - apreldə Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycana səfər edəcək. Heç şübhəsiz, onun azərbaycanlı həmkarı İlham Əliyevlə Bakıdakı yüksək səviyyəli görüşlərdə Dağlıq Qarabağ mövzusu və KTMT-yə yeni baş katibin gətirilməsi məsələsi də diqqət mərkəzində olacaq. Ona da şübhə yox ki, hər iki məsələdə Bakı və Astana bir daha "saat əqrəbləri"ni tutuşduracaq. Başqa sözlə, Nazarbayev təşkilatın Moskva toplantısına faktiki, cilalanmış mövqe ilə gedəcək.

***

Bu arada Türkiyə və Ermənistan prezidentlərinin qısa fasilələrlə Rusiya səfərləri də ekspertlərin diqqət mərkəzində qalmaqda davam edər. Məsələn, **siyasi şərhçi Elxan Şahinoğlu** Rəcəb Tayyib Ərdoğanın Moskva səfəri barədə deyir: "Bu, iki dövlət başçısının təyyarə böhranından sonra dördüncü görüşü idi. Ərdoğanla Putin Moskvada daha çox Suriyadakı vəziyyəti müzakirə etdilər. Bu da gözlənilən idi - baxmayaraq, Ərdoğanın Putinlə görüşdə Azərbaycana aid iki mövzunu da gündəmə gətirməsi bizim üçün önəmli idi. Ərdoğan birinci cümləsində dedi ki, Qarabağ münaqişəsini qısa müddətdə həll etmək lazımdır, əks halda bölgədə müharibə təhlükəsi qalacaq. Eyni zamanda, o, Türkiyə-Rusiya-Azərbaycan formatının yaradılmasını təklif etdi. Ərdoğanın Azərbaycana aid mövzuları Putinin diqqətinə çatdırması rəsmi Bakı tərəfindən yüksək qiymətləndirildi. Lakin Kreml Ərdoğanın təklifi ilə Türkiyə-Rusiya-Azərbaycan formatının yaradılmasına müsbət yanaşsa da, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini sürətləndirməyi planlaşdırmır".

**Ekspert Türkiyə liderinin ardından Ermənistan prezidenti Serj Sərkisyanın martın 15-də Moskvada Putinlə görüşməsinə belə münasibət bildirib:** "Prezidentlərin görüşündən başqa iki ölkənin hərbçiləri də görüşdü. Rusiyanın Baş Qərargah rəisi Valeri Gerasimov Ermənistanın Baş Qərargah rəisi Movses Akopyanla iki ölkə arasındakı hərbi əməkdaşlıq məsələlərini müzakirə etdi. Sərkisyanın Moskvaya səfərində əsas məqsədi atəşkəsə riayət olunacağına dair Moskvadan təminat almaq idi. Sərkisyan istəyir ki, Kreml apreldə Azərbaycana hücuma keçməyə imkan verməsin, Bakıya təzyiqini artırsın və o bu vəziyyətdə seçkini "planlaşdırdığı" kimi keçirsin".

**Politoloqa görə, aprel ayı Ermənistan üçün ağır keçəcək**: "Ermənistan hakimiyyətinin, müxtəlif siyasi dairələrinin və cəmiyyətinin aprel ayı ilə bağlı iki böyük qorxusu var. Birincisi, odur ki, apreldə Azərbaycan Ordusu yenidən hücuma keçərək yeni ərazilər azad edəcək və bu zaman Ermənistan ordusunda keçən il olduğu kimi böyük itkilər qeydə alınacaq. Ermənistanın əhalisi onsuz da azalır. Növbəti dəfə yüzlərlə itkini Ermənistan cəmiyyətinin həzm etməsi problematikdir. İkincisi ondan ibarətdir ki, 2 aprel parlament seçkisində Ermənistanda ara qarışacaq. Ermənistanda Sərkisyana qarşı bəzi qrupların hətta silahlı müqavimət göstərməsi də mümkündür. Çünki Ermənistanda seçkinin saxtalaşdırılması və inzibati resurslardan istifadə imkanları böyükdür. Ötən ilin yayında İrəvanda silahlı qrup polis məntəqəsini ələ keçirərək, qanun keşikçilərini girov götürmüşdü, ölən və yaralanan oldu. Ermənistanda əllərdə başqa silahlar da var. Misal üçün, seçkiqabağı mitinqlərin birində keçmiş müdafiə naziri Seyran Ohanyana atəş açdılarsa, seçkidən sonra başqa silah səslərinin eşidilməsi ehtimalı da yüksəkdir".

Siyasi şərhçi hesab edir ki, Sərkisyanın Putinlə görüşünün digər məqsədi Gümrüdə Rusiya ilə birgə hərbi-sənaye kompleksinin yaradılmasıdır. "Putin 2013-cü ildə Ermənistana səfəri zamanı Sərkisyanla birgə Gümrüdəki Rusiyanın hərbi bazasına baş çəkdikdə, orada birgə hərbi sənaye istehsalına başlanacağını vəd etmişdi. Üstündən 4 il keçib, nəticə yoxdur. Azərbaycanın hərbi sənayesi inkişaf edir, hər il yeni silah və texnika istehsal olunur. Ermənistanın isə belə geniş imkanları yoxdur. Ona görə də Sərkisyanın ümidi onadır ki, Putin Ermənistanda hərbi istehsala kömək edəcək. Rusiyanın nə marağı var ki, Ermənistanda hərbi sənaye istehsalına başlasın? Kreml hərbi istehsalı Rusiya ərazisində qurub və satışdan milyardlarla dollar qazanır", - deyə o əlavə edib.



# Baş nazir aprel döyüşlərindən danışdı

**Martın 17-də Milli Məclisdə 2016-cı il dövlət büdcəsinin icra vəziyyəti ilə bağlı hesabatını təqdim edən baş nazir Artur Rasi-zadə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı yeni təyinatı ilə əlaqədar təbrik edib. Musavat.com-un məlumatına görə, baş nazir bu təyinatı yüksək qiymətləndirib.**

A.Rasi-zadə ötən ilin aprel döyüşlərindən də bəhs edib. "2016-cı ilin aprel döyüşləri ölkəmizin şərəf səhifəsidir. Bu, uzunmüddətli sülh danışıqlarından başqa hərb variantının da mövcud olduğunu ortaya qoydu. Həmçinin bu hadisələr Azərbaycan əsgərinin qələbə əzmini nümayiş etdirdi", - deyə o qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017

**Nizami Gəncəvi Fondunun təşkilatçılığı və Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən V Qlobal Bakı Forumu martın 17-də öz işini davam etdi. “Fairmont Baku” otelinin Nizami Gəncəvi zalında keçirilən tədbirdə əvvəlcə “Beynəlxalq münasibətlərdə Çinin rolu: köhnə qaydaların tətbiqi üsullarının müzakirəsi” mövzusunda panel iclası keçirildi.**



# V Qlobal Bakı Forumunda terror təhlükəsi ilə bağlı “SOS”

Pakistanın sabiq baş naziri **Şövkət Əziz:** “Terrorçular sərhəd tanımır, hər an sərhədləri keçirlər; ona görə də biz reallığı nəzərə almalı, təhlükələrə qarşı birgə mübarizə aparmalıyıq”

## Azərbaycanın ev sahibliyi ilə keçirilən nəhəng tədbirdə dünyanın bu günü və gələcəyi ilə bağlı maraqlı müzakirələr aparıldı

İclasda çıxış edən **İtalyanın sabiq diplomatik müşaviri Antonio Zanardi Landi** Nizami Gəncəvidən sitat gətirməklə başladı. “O, elə şeirlər yazıb ki, uzun əsrlər boyu qalıb”-deyə, əlavə etdi. Daha sonra dedi ki, Çinin qaydaları pozacağı, yoxsa ona əməl edəcəyini demək çox çətindir. Son iki ay ərzində bizə aydın oldu ki, Çin mövcud qaydalara adaptasiya olunmasına çalışacaq. Çünki prezident Tramp elan etdi ki, bir çox müzakirə və sazişlərdən çıxır. Çin çox pozitiv şəkildə buna reaksiya verdi. Eyni zamanda bir sıra müzakirələrdə ABŞ-ın yerini almağı təklif etdi. Hətta Davos Forumunda pozitiv bəyanat verdi. Deməli, Çin beynəlxalq cəmiyyətə inteqrasiya etmək istəyir. Natiq ABŞ prezidentinin hərbi büdcəni 54 milyardadək artıracağı barədə bəyanatının təəccüblü olduğunu dedi: “ABŞ-ın müdafiə büdcəsi onsuz da böyükdür. Amma Tramp elan etdi ki, bu, sülhün bərqərar olunması üçün ayrılacaq. Çin isə qarşılığında bəyan etdi ki, hərbi büdcəsini cəmi 7 faiz artıracaq. Əlbəttə, bu da faktdır ki, Çin Avropa üçün müəyyən problemlər və çətinliklər yaradır”.

**Qırğızıstan Respublikasının sabiq baş naziri Apas Jumaqulov** Forum təşkilatçılarına qonaqpərvərliyə və təşkilatçılığa görə təşəkkürünü bildirməklə çıxışa başladı. Bu mənada o, prezident İlham Əliyevə minnətdarlıq etməklə yanaşı, eks-prezident Heydər Əliyev haqqında fikirlərini söylədi: “Cənab İlham Əliyev 20-ci əsin ən tanınmış insanlarından birinin oğludur. O insan nəinki 20-ci, növbəti əsrlərdə də tanınan biri olaraq qalacaq. Mən onunla işləmək şərəfinə nail olmuşam. Ona görə də cənab Əliyevə təşəkkür edirəm ki, bu siyasəti nəinki öz ölkəsində, həmçinin beynəlxalq aləmdə davam etdirir. Bu Forumun da öz töhfəsini verəcəyinə də əminəm”.

**Daha sonra ölkəsindən bəhs edən sabiq baş nazir dedi ki, Qırğızıstan Respublikası çox ciddi çətinliklərlə üzləşmişdi:** “Belə çətinlikləri yaşamaq tariximizdə olmayıb. Böyük borclar, məvaciblərin ödənilməməsi, qurulanların dağıdılması halları hökm sürürdü. Ancaq biz bu çətinliklərin öhdəsindən gələ bildik. Biz Beynəlxalq Ticarət Təşkilatına daxil olduq. Bu çətin vəziyyətdə böyük qonşumuz Çin bizim ağır durumumuzdan sui-istifadə etmədi. Bizim Çinlə sərhədimiz 1100 km-ə bərabərdir. Tarix boyu böyük Çin və kiçik Qırğızıstan arasında heç bir problem yaranmayıb”.

**A.Jumaqulov Qırğızıstan Respublikasının təmsil olunduğu birlikdən də danışdı:** “1996-cı ildə 5 dövlət tərəfindənm yaradılan Şanxay Əməkdaşlıq Təşkilatına sonradan Monqolustan, Özbəkistan, Pakistan, İran qoşulub. Bu təşkilatın qlobal əhəmiyyətinin də olacağına inanırıq”-deyə, əlavə etdi. Bildirdi ki, artıq çətinliklər geridə qalıb, ayrılan kreditlər hesabına avtomobil yolları tikilir, dəmir yolları çəkilir, elektrik stansiyaları inşa olunur.





Digər çıxışçı - **Macarıstanın sabiq baş naziri Peter Medgyessi** dedi ki, biz çox gülməli vəziyyətlə üzləşmişik: “Çünki həm Çin prezidenti, həm də ABŞ prezidenti iqtisadi rəqabətdən danışır. Amma əslində durum fərqlidir. Bu gün çox maraqlı telefon zəngi olub. Merkel Trampa dəvət zəngi etməzdən əvvəl Çin prezidentinə zəng edib. Düşünürəm ki, bu, çox ziddiyyətli məsələdir və çox təhlükəli vəziyyət yaranıb. Həll yolu rəqabəti qəbul etməkdən ibarətdir. Amma ziddiyyətlər ciddi fəsadlar verə bilər. Çin qəbul etməlidir ki, dünyada istifadə olunan valyuta var. Çin məsuliyyətli olmalı və daha yaxşı valyuta tapmalı, daha yaxşı vəziyyətə uyğunlaşmalıdır. Biz dünyada ciddi şəkildə bir-birimizdən asılıyıq. Əgər Çin valyutasının problemləri olarsa, bu dünyanı fəlakətə gətirib çıxara bilər. Çin məsuliyyəti öz üzərinə götürməli, bankları pis aktivlərdən təmizləməlidir. Amma o zaman bu, tək iqtisadi deyil, həm də siyasi məsələyə çevriləcək, çünki məşğulluqla bağlı problem yarada bilər. Dünya maraqlıdır ki, Çin uğura imza atsın, amma Çin də məsuliyyətli olmalıdır”.

**Çini təmsil edən Tsingua Universitetinin nümayəndəsi David Qingzhong Pan** isə öz arqumentlərindən çıxış etdi, Çinin önəmindən danışdı. “Son bir neçə il ərzində biz 3,5 milyon tələbəni xaricə təhsil almağa göndərmişik. Həmçinin dünyadan 1,8 milyon tələbəni qəbul etmişçik. Biz istəyirik dünya bizi, biz də dünyanı başa düşək”- deyə, bildirdi.

“Hələ ki, bilmirik Amerika strategiyası nədən ibarət olacaq”. Bunu isə **Serbiyanın sabiq prezidenti Boris Tadic** dedi.

**Pakistanın sabiq baş naziri Şövkət Əziz** də bu mövzuda danışarkən beynəlxalq əməkdaşlığa səsləndi: “Hər bir ölkə başa düşür ki, onlar təcrid olunmuş yaşaya bilməz. Terrorçular sərhəd tanımır, hər an sərhədləri keçirlər. Ona görə də biz reallığı nəzərə almalı, təhlükələrə qarşı birgə mübarizə aparmalıyıq”. Natiq dedi ki, bir neçə ay əvvəl Çinin Şen Zin şəhərində olub: “Eynək çərçivələri ən çox orda istehsal olunur. Düşünmürəm ki, bu, təhdiddir. Kim daha ucuz və keyfiyyətli mal istehsal edirsə, biz bunu alqışlamalıyıq. Hesab edirəm ki, prezidentlər kifayət qədər ağıllıdır və vəziyyəti düğün qiymətləndirməlidir”.

**Macarıstanın sabiq baş naziri Peter Medgyessi** Çində keçiriləcək seçkilərə toxundu. Dedi ki, Siyasi Büronun 5 üzvü yaşına görə əvəzlənəcək: “Bu, Çin rəhbərliyi üçün yeni bir imkandır. Çin hakimiyyəti islahatları həyata keçirməyə maraqlıdır. Bu seçki yeni islahatlara yeni bir imkan yaradacaq. Düşünmürəm ki, Avropa ilə eyni hadisələr olacaq, çünki Çin fərqli mədəniyyətə malikdir”.

Daha sonra V Qlobal Bakı Forumu çərçivəsində “Avropanın gələcəyi” mövzusunda panel keçirildi. **Bosniya və Herseqovinanın sabiq baş naziri Zlatko Lagumdzija**nın moderatorluğu ilə keçirilən paneldə Bosniya və Herseqovina Rəyasət Heyətinin sədri Mladen İvaniç, Polşanın keçmiş prezidenti Aleksandr Kvasnevski, Belçikanın sabiq baş naziri Yves Leterme, Sloveniyanın sabiq prezidenti Danilo Türk, Niderlandın sabiq baş naziri Vim Kok, Latviyanın sabiq prezidenti Valdis Zatlers, Çexiyanın keçmiş baş naziri Jan Fişer və İtaliyanın sabiq xarici işlər naziri Franko Frattini iştirak edirdi. M. İvaniç bildirdi ki, Avropa İttifaqı üçün ən önəmli məsələ təhlükəsizlikdir: “Avropa İttifaqında digər əsas problemlərdən biri də qərar qəbuletmə ilə bağlıdır. Mən Balkan yarımadası ölkələrindən birinin təmsilçiyəm. Bizim regionu Avropa İttifaqı olmadan təsəvvür etmirəm. Avropa bizim üçün bir çətirdir. Hesab edirəm ki, miqrasiya problemlərinə görə Avropa İttifaqı yox olmayacaq, dağılmayacaq. Bu qurum iki il əvvəl də çox böyük problemlərlə üzləşmişdi. Lakin vəziyyətdən çıxış yolu tapıldı”. A.Kvasnevski dedi ki, Niderlandda keçirilən seçkilərdən sonra Avropa daha canlı görünür: “Demoqrafiya, miqrasiya Avropa İttifaqı üçün əsas problemdir. Miqrasiya Avropa İttifaqının gələcəyi məsələsidir. Düşünürəm ki, Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi nəticəsində Balkan ölkələri üçün geniş yer açılıb”.

**Y.Leterme qeyd etdi ki, Avropada solçularla sağçılar arasında fərq yox olmağa başlayıb:** “Bizim vətəndaşlarımız həqiqətən avrodan istifadə etmək, Avropa İttifaqının daxilində sərbəst hərəkət etmək istəyirlər. Bir məsələni də qeyd etməliyəm ki, hazırda populizmin qalib gəlmək şansı yoxdur”.

**V.Kok dedi ki, bu ilin 2-ci yarısında avro yenə müzakirə mövzusu olacaq:** “ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp bildirib ki, Avropa bir alman layihəsidir. Bu, düzgün olmayan bəyanatdır. Prezident Tramp Avropa İttifaqına üzv olan digər ölkələri də Böyük Britaniya kimi təşkilatı tərk etməyə ruhlandırır. Fikrimcə, Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi düzgün qərar deyildi”.

V.Zatlers Latviyanın Avropa dəyərlərinə sadiq olduğunu bəyan etdi. J.Fişer və F.Frattini Avropada təhlükəsizlik məsələləri ilə bağlı fikirlərini çatdırıblar.

**Sloveniyanın keçmiş prezidenti Danilo Turk** isə dedi ki, Avropa məkanında dondurulmuş münaqişələrin həlli yalnız regionun bu və ya digər münaqişə olan ölkələri üçün yox, həm də Avropa təhlükəsizliyinin genişləndirilməsi üçün vacibdir: “Azərbaycan bir müddət əvvəl BMT Təhlükəsizlik Şurasının uğurlu üzvü olub. Azərbaycanın beynəlxalq problemlərə, o cümlədən regional düzənə praqmatik yanaşma seçdiyinə inanıram. Avropa təhlükəsizliyi və bu məsələdə əməkdaşlığın ATƏT çərçivəsində fundamental baxış olduğuna inanıram. Bu təşkilat ciddi dəyişikliklərə məruz qalmalıdır. Amma təşkilatda islahatlar aparmaq üçün substantiv tərəqqi əldə etməli və ”dondurulmuş" münaqişələrin mümkün həlli lazımdır. Birbaşa Dağlıq Qarabağ münaqişəsini, eləcə də Gürcüstan və Ukraynadakı problemləri nəzərdə tuturam". D.Türk bildirdi ki, Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi ilə Balkan ölkələri üçün şans yaranıb: “Ötən il Bosniya və Herseqovina Avropa İttifaqına üzvlük üçün müraciət edib və artıq müəyyən irəliləyişlərə nail olunub. Digər Balkan ölkələri də bu istiqamətdə addımlar atacaq. Yaxın vaxtlarda olmasa da, gələcəkdə Avropa İttifaqının genişlənəcəyi ilə bağlı ümidliyəm”.

**Panelin sonunda iştirakçılar tərəfindən suallar cavablandırıldı.**

Forumda iştirak edən ayrı-ayrı diplomatlar və dövlət xadimləri Azərbaycanı narahat edən məsələlərə də münasibət bildirdilər. Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi Piter Semnebi mətbuata açıqlamasında bildirdi ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi regionun bütün ölkələrinin inkişafına mane olur: “Dağlıq Qarabağ prosesinin öyrənilməsinə çox vaxt sərf etmişəm. İnsanlarla görüşüb böhrandan çıxış yolu axtarmışam. Tezliklə bu münaqişənin həllində irəliləyiş olacağına səmimi qəlbdən ümid edirəm”. P.Semnebinin sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız Azərbaycan üçün, həm də bütün region üçün vacibdir: “Qarabağ münaqişəsinin həll edilməməsi regionun bütün ölkələrinin inkişafına mane olur: ”Hesab edirəm ki, Qarabağ münaqişəsi diqqətəlayiqdir. Münaqişəni, iştirakçılarını, tərəflərin maraqlarını yaxşı bilirəm. Məncə, münaqişənin həlli bütün tərəflər üçün faydalı olacaq".

“Ekstremizm və populizm beynəlxalq təhlükəsizliyə qarşı ən böyük hədə hesab edilirmi?” mövzusunda keçirilən panel müzakirələrinə isə **Ukraynanın sabiq birinci xanımı Katerina Yuşşenko** moderatorluq etdi. Paneldə çıxış edən Rumıniyanın sabiq prezidenti Emil Constantinesku, Latviyanın sabiq baş naziri Laimdota Straujuma, Terkiyənin keçmiş XİN rəhbəri Hikmət Çetin, Liviyanın Avropa İttifaqındakı sabiq səfiri Farida Allaghi və digərləri çıxış edib bu beynəlxalq bəlaya qarşı mübarizədə mövqelərini ifadə etdilər.

“Qara dəniz təhlükəsizlik icmasının yaradılması: fəaliyyət planına doğru” panel müzakirələrində də maraqlı müzakirələr oldu.

**Bununla da 50 ölkədən 250-dək qonağın iştirakı ilə keçirilən Bakı Forumu öz işini yekunlardı. Sonda qonaqların şərəfinə ziyafət verildi.**

**❑ Elşad PAŞASOY,**
**Foto: “YM”**

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017

**Martın 16-da prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam imzaladı. Sərəncama əsasən azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 412 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edildi. Bundan başqa, 2 məhkumun ömürlük cəzası müddətli cəza ilə əvəzlənib.**

# Prezidentin əfv sərəncamı müsbət qarşılandı - rəylər

Omlardan birinə, "Hacı Məmmədovun bandası" işi üzrə, DİN-in sabiq idarə rəisi Zakir Nasirovun cəzası 15 il azadlıqdan məhrumetmə ilə əvəz olunub. Daha bir nəfər icrası təxir olunmuş cəzadan azad olunub. 8 nəfər azadlıqdan məhrumetmə ilə əlaqəli olmayan cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş dörd nəfər cəzadan azad olunub. Bir nəfər islah işləri cəzasından, üç nəfər isə cərimə cəzasından azad edilib.

Əfv olunanların siyahısında blogger Əbdül Əbilov, AXCP fəalı Elvin Abdullazadə, "Azadlıq" qəzetinin redaktoru Qənimət Zahidin qohumları Rüfət və Rövşən Zahidovlar da var. "Meydan" TV-nin rəhbəri Emin Millinin qaynı Nazim Ağabəyov şərti cəzadan azad edilib. Əfv olunanlar arasında 19 xarici vətəndaş da var. Onlar İran, Pakistan, RF, Çin, Nigeriya, Türkiyə və Ukrayna təbəələridir.

Lakin REAL sədri İlqar Məmmədovun, Nida üzvü İlkin Rüstəmzadənin, AXCP üzvləri Seymur Həzi və Məmməd İbrahimin də azad olunacağı gözlənilsə də, bu, baş vermədi.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü hüquq müdafiəçisi Səadət Bənanyarlı** "Yeni Müsavat"a açıqlamasında əfv sərəncamını müsbət qiymətləndirdi: "Hər halda bilirdik ki, siyahımızdan 4-5 nəfərdən artıq şəxs azadlığa buraxılmayacaq. Ancaq çox ümid edirdik ki, bizim siyahımızdakı cəmiyyəti maraqlandıran digər ictimai şəxslər də əfv olunarlar. Təəssüf ki, bu, baş tutmadı. Lakin onlarla, yüzlərlə insanın azadlığa çıxması, öz ailələrinə qovuşmaları çox müsbət haldır. Biz yenə də öz işimizi davam edəcəyik və digərlərinin də azad olunmasına çalışacağıq".

**Hüquq müdafiəçisinin sözlərinə görə, xüsusilə də İlqar Məmmədov, Əli İnsanovun azad olunmasını istərdilər:** "Əli Həsənov artıq neçə ildir ki, həbsdədir. Onun işini nəzarətdə saxlayırıq. İstəyirəm ki, Əli İnsanovla bağlı məhkəmənin qərarı obyektiv olsun və bu insan azadlığa çıxsın. Bundan əlavə bizim siyahımızda Seymur Həzi və digərləri də var. Hər halda, siyasi motivlərlə həbs olunmaların qarşısının alınması bizim marağımızdadır. O cümlədən Qiyas İbrahimov və Bayram Məmmədovu da diqqətdən kənarda saxlamaq istəməzdim. Doğrudur, bu şəxslərin etdikləri xuliqanlıqdır və ancaq verilən cəza da həddən artıq sərtdir. Ona görə də bu şəxslərin azadlığa çıxmaları bizim üçün çox vacibdir".



**Səadət Bənanyarlı:** "Sərəncamı yüksək qiymətləndiririk"



**Sərdar Cəlaloğlu:** "İstənilən halda əfv mütərəqqi, humanist bir addımdır, ancaq..."

**ADP sədri Sərdar Cəlaloğlu** isə hesab edir ki, dəyişən heç nə yoxdur: "Əfv istənilən halda mütərəqqi, humanist bir addımdır. Cəmiyyətdə həmrəyliyin möhkəmlənməsinə, qarşıdurmanın zəifləməsinə xidmət edir. Ancaq məsələyə problemin həlli baxımdan yanaşsaq qeyd edim ki, bu, həll demək deyil. Bu gün kimlərsə əfv olunur, ancaq sabah yenə də qeyri-qanuni olaraq digərləri həbs olunacaq. 30 ildir ki, Azərbaycanda siyasi məhbusların, qeyri-qanuni həbslərin həcmi sabit qalır. Ona görə də Azərbaycan insan hüquq və azadlıqlarının vəziyyətinə görə beynəlxalq siyahılarda hər zaman axırıncı yerlərdə olur. Ölkədə də vətəndaş həmrəyliyi yoxdur. Bu vəziyyət dəyişməyənə qədər əfvlərin, amnistiyaların cəmiyyəti irəli aparan heç bir gücü olmayacaq. Xeyli sayda insan var ki, siyasi motivlərlə həbs olunub və bu gün də həbsxanadadır. Özüm həbs olunmuş, işgəncələrə məruz qalmış adam kimi, Azərbaycan hüquq-mühafizə orqanlarının istintaq işinin mahiyyətini çox yaxşı bilirəm. Azərbaycanda müstəqil məhkəmə olmadığı, hakimlər hüquqi baxımdan savadsız olduqları üçün heç zaman məhkəmə hökmünə bəraət qazandırmaq və onu düz qəbul etmək olmaz. Bu da onu göstərir ki, əfv sərəncamı verilməsi ilə yanaşı, həm də hüquq-məhkəmə sisteminin islahatlar aparılaraq, təkminləşdirilməsi lazımdır. Çox təəssüf ki, bu kimi islahatlar baş vermir. Parlamentin qəbul etdiyi qanunlar Azərbaycanı sivil dünyadan uzaqlaşdırıb orta əsrlərə aparır. Mövcud qanunla göstərir ki, Azərbaycanda insanların hüquq və azadlıqları məhduddur. Hətta bu qanunlar belə icra prosesi zamanı pozulur. Bu baxımdan hesab edirəm ki, əfv sərəncamını azadlığa çıxanların ailələrinə qovuşması və digər bu kimi hallar baxımından müsbət qiymətləndirsəm də, düşünürəm ki, bunun heç bir siyasi nəticəsi yoxdur. Adicə məişət cinayətlərini belə yoxlasan görərsən ki, onların da böyük əksəriyyətinə Cinayət Prosessual Məcəlləyə uyğun hökmlər çıxarılmayıb".

**Əfv komissiyasının üzvü Əliməmməd Nuriyev** isə bildirib ki, verilən əfv sərəncamını olduqca müsbət qiymətləndirir: "Cənab prezident mərhəmət prinsiplərinə söykənərək humanizm nümayiş etdirdi. Bu müstəqillik əldə etdikdən bu günə qədər verilmiş sayca 62-ci əfv sərəncamı idi. 2003-2017-ci illər arasında 4 minə yaxın məhkum, cənab prezidentin sərəncamı ilə azadlığa çıxıb. Bu, çox əhəmiyyətli bir rəqəmdir. Eyni zamanda hesab edirəm ki, Azərbaycanda cəzanın humanistləşdirilməsini nümayiş etdirən iradənin ifadəsidir. Son sərəncamı da bu qəbildən hesab etmək lazımdır. Xüsusilə də ölkə başçısının 10 fevralda imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı məhkəmə və hüquq islahatlarının aparılmasının mühüm bir istiqamətidir. Onu da qeyd edim ki, bu gün (dünən-red.) çox qısa bir müddətdə əfv sərəncamının icrası tam başa çatdırıldı. Bu, Penitensiar Xidmətin rəhbərliyinin peşəkarlığını göstərir. Son zamanlar aparılan işlər Azərbaycanda məhkəmə-hüquq islahatlarının daha da dərinləşməsinin göstəricisidir. Cəza çəkmə müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, yenilərinin tikilməsi bütövlükdə həm də Azərbaycan vətəndaşına verilən qiymətdir. Güman edirəm ki, bu gün azadlığa çıxan şəxslər bunun dəyərini düzgün qiymətləndirəcəklər".

**Ə.Nuriyevə görə, bu vaxta qədər əfv sərəncamı ilə azadlığa çıxanların 99 faizi bir daha yenidən cinayət törətməyib:** "Bu da onu göstərir ki, barəsində əfv qərarı çıxarılan şəxslər doğru-düzgün seçilir. Cənab prezidentin bu sərəncamı azad olunanların özlərinə, ailələrinə bayram hədiyyəsi olmaqla yanaşı, cəmiyyətimiz üçün də bir mesajdır ki, biz hər bir vətəndaşımıza dəyər veririk. Ona yenidən cəmiyyətin tam bir üzvü olması üçün şanslar veririk. Sərəncam onu da göstərdi ki, cənab prezident QHT-lərin, ombudsmanın, insan hüquqları müdafiəçilərinin müraciətlərinə də çox diqqətlə yanaşıb. Bu proses davamedici bir prosesdir. İnanıram ki, bundan sonra qanunvericilik daha da təkminləşdiriləcək və eyni zamanda amnistiya, əfv kimi institutların tətbiqi də bütövlükdə prosesin fasiləsiz xarakter almasının göstəricisidir".

❑ Əli RAİS

# Deputat Azərbaycanın adı qarışan 56 milyonluq rüşvət qalmaqalından danışdı

## Vahid Əhmədov: "Azərbaycan Dəmir Yolları"nın keçmiş rəhbərliyi buna görə cavab verməlidir"



**İsveç məhkəməsi Kanadanın beynəlxalq nəqliyyat infrastrukturu şirkəti olan "Bombardier"in bu ölkədəki törəmə şirkəti "Bombardier Transportattion"un əməkdaşı olan Rusiya vətəndaşını həbs edib. "Bombardier" şirkətinin bir neçə top-meneceri "Azərbaycan Dəmir Yolları" QSC ilə 2013-cü ildə bağlanmış müqaviləyə görə Azərbaycanın vəzifəli şəxslərinə 56 milyon dollar yeyinti ötürülməsinə dair sövdələşmədə iştirak ediblər.**

Söhbət "Bombardier"lə Bakı-Böyük Kəsik dəmir yolu xəttinin siqnal sisteminin modernləşdirilməsi ilə bağlı 2013-cü ildə imzalanmış müqavilədən gedir. Müqaviləyə əsasən şirkət uzunluğu 503 km olan dəmir yolunda "İnterfilo 200" siqnal sistemlərini quraşdırmalıdır. İşlərə layihələndirmə, istehsal, çatdırılma, montaj, yoxlama və xətt üzrə "İnterfilo 200" siqnal sisteminin istismara verilməsi daxildir. Sistemin tətbiqi dörd mərhələdə həyata keçirilməlidir, prosesin özü isə tam olaraq 2017-ci ildə başa çatmalıdır. Müqavilə imzalanarkən "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tərkibində idi və bu struktura Arif Əsgərov rəhbərlik edirdi. Artıq "Bombardier" şirkətinin əməkdaşının barəsində 2 həftəlik həbs-qətimkan tədbiri seçilib. Həbs olunan Yevgeni Pavlovdur. Onun vəkilləri bildiriblər ki, o və "Bombardier" şirkətinin bir neçə top-meneceri Azərbaycanla korrupsiya sövdələşməsində ittiham olunurlar. Böyük yeyinti faktlarını üzə çıxaran isə İsveçin SVT telekanalı, TT agentliyi və "Radio Canada", habelə mütəşəkkil cinayətkarlıq və korrupsiya araşdırmaları üzrə jurnalistika Mərkəzi OCCRP-dir. Jurnalistlər aşkara çıxarıblar ki, "Bombardier" şirkəti ilə "Azərbaycan Dəmir Yolları" arasında bağlanmış müqaviləyə əsasən, 46 siqnal avadanlığı birbaşa Azərbaycana göndərilir, ancaq pullar Londonda qeydiyyatdan keçmiş, nə ofisi, nə ünvanı, nə telefon nömrəsi olmayan hansısa şirkətə köçürülür. Sövdələşməyə əsasən, siqnalizasiya avadanlıqlarının təchizatı iki ayrı müqavilə əsasəndə həyata keçirilir. Birinci müqavilə üzrə "Bombardier" şirkəti tərəfindən "Ebilock-950" siqnalizasiya avadanlığı 126 milyon İsveç kronuna Londonda qeydiyyatdan keçmiş həmin "Multiserv Overseas" şirkətinə satılır, həmin şirkət isə avadanlığı bu dəfə 5,5 dəfə baha qiymətə, yaxud o vaxtkı məzənnə ilə 695 milyon krona və ya 104 milyon dollara Azərbaycana satır. İsveç prokurorluğu bildirir ki, Azərbaycan məmurları "Bombardier" şirkəti ilə bağlanmış müqavilədən bu fırıldaq mexanizm sayəsində "otkat" alıblar. İsveç hüquq-mühafizə orqanları diqqəti belə fakta yönəldir ki, 2013-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin elan etdiyi həmin tenderə "Bombardier" şirkətindən başqa bir neçə şirkət də qatılmışdı və onlar xeyli aşağı qiymət təklif etmişdilər. Lakin müqavilə "Bombardier"lə bağlanıb. Həmçinin üzə çıxıb ki, müqavilə üzrə işlərin görülməsi zamanı 56 milyon dollar Azərbaycan məmurlarına ötürülüb.

Azərbaycan hüquq mühafizə orqanlarından bidiriblər ki, hələlik məsələ ilə bağlı İsveç Prokurorluğundan hər hansı bir sorğu daxil olmayıb.

**Deputat Vahid Əhmədov** isə "Yeni Müsavat"ın suallarını cavablandırarkən deyib ki, İsveç Prokurorluğunun "Azərbaycan Dəmir Yolları" QSC-nin adı hallanan cinayət işini araşdırması haqda məlumatlıdır: "İsveç Prokurorluğu bu məsələləri araşdırır. Yəqin araşdırmaların bir sonu olacaq, bir qərar veriləcək. Digər tərəfdən bu məsələ dünya mətbuatının diqqətindədir".

**V.Əhmədov bildirib ki, yaranmış durum Azərbaycanda tenderlər keçirilərkən qanunlara riayət olunmamasından qaynaqlanır:** "Azərbaycanda faktiki olaraq tenderlər necə keçirilir, bunu hamımız bilirik. Tenderdə daha çox hansı dairələrlə yaxınlıq, əlaqə var, onlar qalib çıxırlar, üstünlük qazanırlar. Bir müddət əvvəl satınalmalar agentliyi ləğv olundu. Bu agentlik faktiki qanunun işlək olmasını təmin etmirdi. Hazırda bu səlahiyyətlər İqtisadi İnkişaf Nazirliyinə verilib. Belə halların təkrar edilməməsi üçün tender məsələləri xüsusi nəzarət altında olmalıdır. Maliyyə Nazirliyi tenderlərlə bağlı məsələləri izləməlidir. Xüsusi nəzarət olmalı, tenderlərin şəffaf keçirilməsi təmin edilməlidir. Bəzi adamlar var ki, qanunun yanından keçməyə, öz maraqlarını təmin etməyə yollar axtarır və çox vaxt da istəklərinə nail olurlar. Bu aradan qaldırılmalıdır".

**Millət vəkili deyib ki, bununla belə tenderlər zamanı yol verilən neqativ hallara görə həmin tenderi elan edən, keçirən təşkilat cavabdehlik daşıyır:** "İsveç Prokurorluğu tenderdən əvvəl qeyri-qanuni ödəmələrin olduğunu üzə çıxarırsa, "Azərbaycan Dəmir Yolları"nın rəhbərliyi də buna görə cavab verməlidir".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017

# ASAN Xidmətə işə adam "düzəldən" dələduz tutuldu

**Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN xidmət"in) adından istifadə edilməklə dələduzluq əməllərinin törədilməsi barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş müraciət araşdırılıb.**



Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini Zöhrab Paşayevin özünü "ASAN xidmət" mərkəzinin vəzifəli şəxsi kimi təqdim edib, saxta sənədlərdən istifadə edərək 2017-ci ilin yanvar ayı ərzində iki vətəndaşı mərkəzə işə düzəldəcəyi adı ilə aldadıb 13.600 (on üç min altı yüz) manat məbləğində pulu ələ keçirməsinə şübhələr üçün əsaslar olduğundan həmin faktlar üzrə cinayət işi başlanıb.

Z.Paşayevə Cinayət Məcəlləsinin 178.2.4 (dələduzluq, xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və 320.1-ci (rəsmi sənədləri, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama və ya satma) maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Bundan başqa, istintaq zamanı Z.Paşayevin özünü dövlət orqanlarının vəzifəli şəxsi, habelə məhkəmələrdə hüquqşünas kimi təqdim edərək beş epizod üzrə saxta məhkəmə qərarları, o cümlədən dövlət ştampı, möhür və blankarından istifadə edərək ayrı-ayrı şəxsləri aldadıb onlara məxsus 10.660 (on min altı yüz altmış) manat məbləğində pulu ələ keçirməsinə dair sübutlar əldə olunub.

Hazırda Z.Paşayevin törətdiyi digər əməllərin araşdırılması, eləcə də cinayətin digər iştirakçılarının müəyyən olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbiləri davam etdirilir.

## Bakıda evə girən oğrular vətəndaşa 5000 manat ziyan vurdu

**Bakıda mənzildən pul və xeyli qızıl-zinət əşyaları oğurlanıb. Musavat.com xəbər verir ki, hadisə paytaxtın Binəqədi rayonunda baş verib. Mir Cəlal küçəsindəki 127 saylı binanın 80-ci mənzilində yaşayan Nicat Kərimovun sözlərinə görə, rayonlardan birində işlədiyindən, həftənin iş günləri Bakıda olmur. Oğurluq da bu ərəfədə törədilib. Zərərçəkən Musavat.coma-a bildirib ki, oğurluq barədə Bakıya qayıtdıqda xəbər tutub: "Girəndə gördüm ki, ev dağınıqdır. Oğurluq edildiyini bildim və dərhal polisə məlumat verdim".**

Naməlum şəxs və ya şəxslər mənzilə pəncərədən daxil olublar. Oğrular əvvəlcə qonaq otağında pul axtarışına başlayıblar. Orda heç nə tapmadıqda axtarışı yataq otağında davm etdiriblər: "200 manat və 200 dollara yaxın pulu götürüblər. Sonra qızılları saxladığımız rəfi açıblar. Oradan bir ədəd brilyant dəsti, bir ədəd brilyant üzük və bir ədəd qızıl sırğa götürüblər". Ev sahibi Nicat Kərimovun təxmini hesablamalarına görə, ona 5000 manata yaxın ziyan vurulub.

**Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları hadisə yerində olublar. Mənzildən əl-barmaq izləri götürülüb. Hadisənin kim və ya kimlər tərəfindən törədildiyinin müəyyən edilməsi üçün əməliyyat-axtarış tədbirləri görülür.**

## Deputatın qardaşı oğlu məhkəmə zalından azadlığa buraxıldı

**Deputatın qardaşı oğluna hökm oxunub. O, dələduzluqda təqdirləndirilərək həbs edilmişdi. Onun cəzası şərti olaraq elan edilib və o, məhkəmə zalından azadlığa buraxılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Namiq Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Hakim Rauf Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Məhkəmənin hökmü ilə N.Əhmədovun barəsində Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq olunaraq, ona şərti cəza verilib.

N.Əhmədov Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda olduqda) maddəsi ilə ittiham olunurdu. Onun vətəndaşları işə düzəltmək adı ilə 30 min manat pulunu dələduzluq yolu ilə ələ keçirdiyi qeyd edilir. N.Əhmədov deputat Vahid Əhmədovun qardaşı Rafiq Əhmədovun oğludur.

Daha əvvəl N.Əhmədovun bacısı Nigar Əhmədova da dələduzluqda təqsirli bilinərək, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il müddətinə azadlıqdan məhrum edilib. Ancaq deputat mətbuata açıqlamasında Nigar adlı qardaşı qızının olmadığını deyib.

❑ **İ.MURADOV**



## 2 manatlıq araq içib qonşusunu vurdu, 6 il cəza aldı

**Qusarda qonşusunu bıçaqlayan şəxsə hökm oxunub. O, məhkəmədə günahını etiraf edib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində adam bıçaqlamaqda təqsirləndirilən Qusar rayon sakini Fariz Bayrambəyovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə 45 yaşlı Bayrambəyova hökm oxunub.

O, məhkəmənin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrum edilib.

Hadisə Qusar rayonunun Hil kəndi ərazisində baş verib. Kənd sakini Adil Bədəlov kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilib. Onu bıçaqlayan şəxsin həmkəndlisi F.Bayrambəyov olduğu müəyyən edilib.

Adil Bədəlov kəndin mağazasında 2 manata spirtli içki alıb və Bayrambəyovu evinə çörək yeməyə dəvət edib. Onlar yeyib-içəndən sonra aralarnda söyüş üstündə mübahisə baş verib. Hər iki şəxs sərxoş olduğundan bir-birlərini nə üstündə söydüklərini bilmirlər.

F.Bayrambəyov Cinayət Məcəlləsinin 126.1-ci (sağlamlığa ağır xəsarət yetirmə) maddəsi ilə ittiham edilib.

**Məhkəmədə təqsirləndirilən şəxs qismində ifadə verən F.Bayrambəyov elan olunmuş ittiham üzrə özünü təqsirli bilib.**

❑ **İ.MURADOV**

## Həmcinslərini Dubaya aparıb satan qadın tutuldu

**Qadınları Dubaya aparan şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə Sumqayıt şəhər sakini Esmira Sadıxovanın gəlir əldə etmək məqsədilə qadınları BƏƏ-nin Dubay Əmirliyinə apararaq insan alverinə məruz qoyması müəyyən edilib.**



## Keçmiş polis narkotiklə tutuldu

**Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin (BNMİ) Cənub Regional Şöbəsinin keçmiş əməliyyatçısı narkotik maddə ilə tutulub.**

Report-un məlumatına görə, BNMİ-nin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində İdarəni Cənub Regional Şöbəsinin keçmiş əməliyyatçısı Nazim Xəlilov tutulub. Onun üzərinə baxış keçirilən zaman səkkiz bükümdə narkotik maddə olan heroin aşkarlanaraq götürülüb.

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara**
**Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktlarının pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

YENİ MÜSAVAT
N 60 (6674) 18 mart 2017

**Araq reklamlarına televiziyalarda tez-tez rast gəlirik. Ölkədə yerli araqlarla yanaşı, xaricdən, Rusiyadan, Ukraynadan və digər ölkələrdən də spirtli içkilər gətirilir. Bəs çox vaxt gözəl şüşələrdə olan bu cür içkilərin keyfiyyəti də standartlara uyğundurmu? Suala cavab almaq üçün paytaxtdakı bir neçə marketə baş çəkdik.**

# Satışda ucuz və saxta araqlar var





## Eyyub Hüseynov: "Xaricdən də Azərbaycana keyfiyyətsiz spirtli içkilər gətirilir, əhali bilməlidir ki..."



Burada qiymətlər 2 manatdan başlayırdı. Satıcılar daha çox ucuz yerli araqların, ikinci isə Rusiya araqlarının satıldığını dedilər. **Satıcı Telman Əliyev** isə alıcıların elə də çox olmadığını dedi: "Spirtli içkilərimiz daha çox bayramlarda satılır. Rusiya araqlarını daha çox istəyirlər. Ən yaxşı Rusiya arağının qiyməti 10 manatdan başlayır".

Araqların bəzilərinin üzərində yararlılıq müddətinin olmadığını gördük. Satıcıdan bunun səbəbini soruşduqda o, hərdən bu cür olduğunu, ancaq araqların təzə olduğunu söylədi.

Xaricdən, xüsusilə də Rusiya və Ukraynadan gətirilən araqların qiyməti 8-10 manatdan başlayır. Azərbaycanda istehsal olunan ən ucuz araq isə kiçik araqlardır ki, onun qiyməti 2 manatdır. Mağazada 40-50, hətta 100 manata belə araqlar vardı.

Dəfələrlə mətbuatda saxta araqların olmasına dair xəbərlər eşitmişik. Onlar daha çox ucuz qiymətə restoranlara, şadlıq evlərinə satılır. Təsadüfi deyil ki, bir sıra hallarda toylarda araqdan kütləvi zəhərlənmə halları kimi xəbərlərlə rastlaşmışıq. Mütəxəssislər isə saxta arağı təmiz araqdan ayırd etməyin mümkün olduğunu deyirlər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** spirtli içki sektorunun çirklənmiş bir sahə olduğunu bildirdi: "Biz Azad İstehlakçılar Birliyi olaraq istehlakçıların ucuz qiymətə keyfiyyətli mal almasının tərəfdarıyıq. Azərbaycanda içkilər bazarı həddindən artıq çirklənmiş bir sektordur. Əhali bilməlidir ki, araqların satış şəbəkələrində saxlanma müddəti bir ildən artıq olmamalıdır. Lakin monitorinq aparsaq görərik ki, 95 faiz araqların üzərində buraxılma tarixi, yararlılıq müddəti yoxdur. Ölkənin əmtəə bazarında, hətta xaricdən gətirilən arzu olunmaz içkilər kifayət qədər çoxdur. Təəssüflər olsun ki, Bakı ətrafında bəzi firmalar heç bir üzüm plantasiyası olmadan qarışıq mayelərdən araqlar, spirtli içkilər hazırlayıb əhaliyə təklif edir. Spirtli içkilərin Azərbaycanda ucuz olmasının səbəbi tələbatın az olması ilə bağlıdır. Yəni tələbat az olanda qiymət aşağı düşür. Xarici ölkələrdən də Azərbaycana kifayət qədər keyfiyyətsiz spirtli içkilər gətirilir. 10 il əvvəl biz Kənd Təsərrüfatı Nazirliyinə rəsmi müraciət etdik və Kütləvi İnformasiya Vasitələrinin, ictimai təşkilatların, mütəxəssislərin iştirakı ilə açıq şəffaf fəaliyyət göstərən spirtli içkilər üçün dekustasiya komissiyasının yaradılmasını təklif etdik. Lakin bu təklif dəstəklənmədi. Onlar özləri o vaxt belə bir komissiya yaratdılar və bu komissiya qapalı şəkildə fəaliyyət göstərir. Heç kimin də xəbəri yoxdur ki, onlar nəyi necə edirlər. Yəni bu işlərin hamısında şəffaflıq əməl gəlməlidir ki, spirtli içki bazarında vəziyyət düzəlsin".

**E.Hüseynov Rusiya brendi ilə Azərbaycanda qanuni araq istehsalının olduğunu dedi:** "Rusiya brendi ilə Azərbaycanda araq istehsal olunur və bu brend ölkəmizdə təsdiq olunub. Lakin bu yaxınlarda Daxili İşlər Nazirliyi çox böyük miqdarda 30 cür xarici arağı istehsalı edən araq istehsalçılarını ifşa etdi. Bu da çox yaxşı haldır. Bu vəziyyətin, insanların araqdan zəhərlənməsinin qarşısını almaq üçün ölkə prezidentinin fərmanı olub ki, qida təhlükəsizliyi üzrə agentlik yaradılsın. İşçi qrupu təyin olunub və bu qrupun rəhbəri baş nazirin müavini Əli Əhmədovdur. Mən Əli Əhmədova 20 gün bundan öncə rəsmi müraciət göndərdim və həmin qurumda təmsil olunmaq və təkliflərimi vermək istəyimi bildirdim. Məni Nazirlər Kabineti səviyyəsində bir adam qəbul etdi və məlum oldu ki, qida təhlükəsizliyinə dair gələn ildən işə başlayacaq bir qurumda heç bir ictimai təşkilat, heç bir ictimai nəzarət nəzərdə tutulmur. Lakin mən xahiş eləmişəm ki, sırf istehlakçıların adından biz orada iştirak edək. Görək dövlət istehlakçıların səsini eşitmək üçün hansı addımı atacaq".

❑ **Günel MANAFLI,**
**Fotolar müəllifindir**

# Azərbaycanda Hollandiya məhsulları boykot edilirmi...





## "Türkiyə ilə Niderlandın münasibətləri pozulmadan öncə də vəziyyətimiz ürəkaçan deyildi"

**Gül mağazalarında Hollandiyadan gətirilən məhsulların satışında azalma olduğu bildirilir. Lakin satıcılar bunu Türkiyə-Hollandiya münasibətlərinin korlanması ilə deyil, başqa faktorla əlaqələndirirlər...**

Türkiyə ilə Hollandiya arasında yaşanan gərginlik əsnasında bəzi türk rəsmiləri Hollandiyanı iqtisadi sanksiyalarla da hədələdilər. Sosial şəbəkələrdə Türkiyə vətəndaşları tərəfindən Hollandiya məhsullarının boykot edilməsi çağırışları da gəldi. Bəziləri artıq Hollandiya istehsalı olan məhsulları almayacaqlarını söylədilər.

Rəsmi rəqəmlərə görə, 2016-cı ildə Türkiyə-Hollandiya arasında xarici ticarət dövriyyəsi 6.6 milyard dollar olub. 2015-ci ildə türk şirkətlərinin dövriyyəsi 9 milyard dolları ötüb.

Türkiyə iqtisadiyyat nazirliyinin rəsmi internet səhifəsindəki məlumatlara əsasən Türkiyə Hollandiyaya 3.6 milyard dollarlıq ixracat edib. İdxalın rəqəmləri isə 3 milyard dollardır. Türkiyənin ixracatının ən böyük hissəsi mebel daşıyan mühərrikli vasitələr, idxalatının ən böyük hissəsini isə dəmir-polad və metal qırıntıları təşkil edir.

Ümumilikdə qeyd olunur ki, Hollandiya ABŞ-dan sonra dünyanın ikinci böyük kənd təsərrüfatı malları ixracatçısıdır. Biomüxtəlifliyin ən az olduğu, qıt mənbələrə və çətin şərtlərə baxmayaraq Hollandiya kənd təsərrüfatında böyük iqtisadi həcmə çatıb.

Məlumatlara görə, Hollandiyanın kənd təsərrüfatı müəssisələrinin sayı 65 mini ötüb. Ən böyük beş aqrar ixracat məhsulunun dəyəri 34,8 milyard avroya çatıb.

Azərbaycan da Hollandiyadan məhsullar idxal edir. Belə ki, bu gün də ölkədə Hollandiyadan gətirilən ağartı məhsulları, sulu boyalar və əsasən də güllər satılır.

Bəs Azərbaycanda necə, Türkiyə ilə Hollandiya arasında gərginlik yarandıqdan sonra holland məhsullarının satışında azalma varmı?

Suala cavab tapmaq üçün ölkədə ərzaq məhsulları satılan mağazalara və gül dükanlarına yollandıq. Gül dükanlarında bildirdilər ki, mağazada güllərin əksəriyyəti Hollandiyadan gətirilib:

"Son zamanlar gül satışında zəiflik hiss olunur. Yəni Türkiyə ilə Hollandiyanın münasibətləri pozulmadan öncə də vəziyyətimiz ürəkaçan deyildi. Yalnız bayramlar ərəfəsində satışda artım olur. Lakin bu il 8 Mart ərəfəsində də satış əvvəlki illərlə müqayisədə xeyli zəif oldu", deyə gül mağazalarında bildirilər.

Mağazalarda isə bildirdilər ki, satılan ağartı məhsullarının 70 faizi yerli istehsaldır, 30 faizi isə xaricdən gətirilir. Hollandiyadan gətirilən məhsulların satışında heç bir azalmanın və ya artımın müşahidə olunmadığını söylədilər.

**İqtisadçı Natiq Cəfərli "Yeni Müsavat"a bildirib ki, son illər Azərbaycana Hollandiyadan idxal azalıb:**

"Azərbaycanda 200-ə yaxın Hollandiya şirkətlərinin nümayəndəlikləri fəaliyyət göstərir. Şirkətlər əsasən enerji sektorundadır. Azərbaycan Hollandiyaya olan ixracat isə o qədər də ciddi rəqəmlərlə ifadə olunmur. Hollandiya bizdən nə neft, nə də qaz almır. Bizim də əsas ixracımız bu iki məhsuldur. Lakin biz Hollandiyadan 50 milyon dollara yaxın məhsul idxal edirik. Son iki ildə idxal aşağı düşüb. Ümumiyyətlə, son iki ildə Azərbaycanın digər ölkələrdən də idxal etdiyi məhsullar xeyli azalıb. Alıcılıq qabiliyyəti düşdükcə, idxal da azalır. 2014-cü ildə 16 milyard dollar olan idxalın həcmi 2016-cı ildə isə 6 milyard azalaraq 10 milyarda düşdü". Rəsmi rəqəmlərdə qeyd olunur ki, 2016-cı ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 18,9% azalıb.

**2014-cü ildə Azərbaycan və Niderland arasında ticarət dövriyyəsinin həcmi ötən il 320 milyon dollar təşkil edib.**

❑ **Əli RAİS,**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 60 (6674) 18 mart 2017



# Pulsuz nahar qazanmaq üçün idman edirlər

**"David Lloyd Clubs" fitnes klub şəbəkəsi Londonda yeni kafe açıb. Bu kafedə müştərilər hesabı idman hərəkətləri etməklə ödəyə bilirlər. Lenta.ru saytı yazır ki, müəssisədə pulsuz lanç qazanmaq o qədər də çətin deyil. Bunun üçün 6 dəqiqəlik yüksək intensivlikli proqramı həyata keçirmək lazımdır. Ona bir çox çətin idman hərəkətləri daxildir. Yüksək enerji tələb edən bu idman hərəkətlərinə görə müştərilər tərəvəzli pitsa, eləcə də yağda qızardılmış pendir verilir. Bundan başqa, onlara qoz, meyvə kimi təamlar da təqdim olunur. Yeni kafe British Heart Foundation adlı xeyriyyə təşkilatını da maliyyələşdirəcək. Sözügedən məkan 11-13 yanvar tarixlərində saat 12:00-dən 15:00-ə qədər açıq olacaq.**

David Lloyd Clubs təsisçiləri müasir insanların həyat tərzində dəyişikliyi vacib hesab ediblər. Çünki insanlar günlərinin 90 faizini ofislərdə, oturaq iş sistemində keçirirlər. Hesablamalara görə, orta iş günü 8 saat, ildə isə 1576 saat (təxminən 65 gün) təşkil edir. Bundan başqa, respondentlərin üçdə biri boynuna alıb ki, yeməyi də monitor arxasında yeməyə üstünlük verirlər.

# Qadının selüliti varsa, ağıllıdır

**Böyük Britaniya mətbuatının yazdığına görə, qadınların fiziki görüntüsü ilə onun ağlı arasında olan əlaqə araşdırılıb. Araşdırma nəticəsində böyük ombaya malik olan və sellülitli qadınların digərləri ilə müqayisədə daha ağıllı olduğu üzə çıxıb. Alimlər bildirir ki, qadının ayaqlarında, qarnında və yanında daha çox piyin olması beyinə müsbət təsir göstərir. Bununla da onlar xüsusilə seksdə daha ağıllı olurlar.**



Mütəxəssislər 95% qadında rast gəlinən sellülitə mənfi yanaşmanın düzgün olmadığı qənaətindədirlər: «Bu, problem kimi şişirdilib. Amma əslində sellülitin yaranması normal və təbii prosesdir. Sellülit həmişə olub və heç kim onu problem saymayıb. İndisə bu, reklam hoqqabazlığının obeyktinə çevrilib. Sellülit böyük bir sənayeyə işləməyə başlayıb».

# Kişilər ata olandan sonra depressiyaya düşürlər

**Rusiya mətbuatının yazdığına görə, araşdırmalar hər 5 kişidən birinin ata olduqdan sonra depressiyaya düşdüyünü sübut edib.**

Belə ki, üzərində müşahidə aparılan ataların 21 faizi övladlarının 12 yaşı olana qədər mütəmadi olaraq depressiyadan əziyyət çəkirlər. Araşdırmalar zamanı 87 min ailə üzərində müşahidə aparılıb. 1993-2007-ci illərdə həkimə müraciət edən gənc ataların beşdə birinin depressiya əleyhinə müalicə olunduğu məlum olub.

Maraqlı məqam isə odur ki, körpələri dünyaya gələrkən gənc ataların cəmi 3%-i ruh düşkünlüyü yaşayır. Lakin zaman keçdikcə bu göstərici artır. Belə ki, övladı 4 yaşında olan ataların 10%-i, 8 yaşında olanların 16%-i, 12 yaşında olanların isə 21%-i depressiyadan əziyyət çəkir.





# Selfi fotoları üçün 17 min dollarından keçdi

**Böyük Britaniyanın Riçmond şəhərində yaşayan qadın sırf selfi fotolarda yaxşı görünsün deyə plastik əməliyyatlara 17 min dollar pul xərcləyib. Onun fikrincə, qadının əsas vəzifəsi həm də yaxşı görünməkdən ibarətdir. 28 yaşlı Şelli Skinns öz məqsədinə çatmaq üçün burun və buxaq əməliyyatı keçirib. Bundan başqa, qız görmə qabiliyyətini yaxşılaşdırmaq üçün də əməliyyatdan keçib. O, selfi fotolarında eynəklə görünmək istəməyib. "Nəhayət, mən öz selfilərimdən razı qalacam və özümü öz bədənimdə komfortda hiss edəcəm". Bunu da Riçmond sakini deyib.**

16 yaşında Skins müxtəlif rakurslardan öz fotolarını çəkməyə başlayıb. Britaniyalını üzündəki bəzi cizgilər qane etmirdi. O, hesab edirdi ki, məhz bu cizgilərə görə onun əksər fotoları uğursuzdur.




**QOÇ** - Kifayət qədər mübahisəli gündür. İfadə etdiyiniz hər bir sözə ciddi yanaşın. Əks təqdirdə münaqişəli situasiyalara cəlb olunacaqsınız. Falçı və cadugərlərdən uzaq olun.

**BUĞA** - Təxminən saat 14-ə qədər ümumi əhvalınız süst olduğundan bütün ciddi işlərinizi təxirə salın. Sonrakı müddətdə isə maliyyə uğurlarınız gözlənilir. Uzaq yola çıxmayın.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimdə işgüzarlığınız kifayət qədər artacaq. Bu səbəbdən də şəxsi büdcənizi qorumalı, fəaliyyət istiqamətlərini dəqiqləşdirməlisiniz. Yeni təkliflərə razı olmayın.

**XƏRÇƏNG** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu kimi sövdələşmə və müzakirələrdə iştirakınız yaxın gələcəyin planlarını həyata keçirməyə kömək edəcək. Şübhəli adamlardan uzaq olun.

**ŞİR** - Passiv gündür. Hansısa qeyri-adi hadisəni gözləməyə dəyməz. Yaxşı olar ki, üzərinizə düşən adi işlərin həlli ilə məşğul olasınız. Məxfi görüşləri və səfərləri təxirə salın.

**QIZ** - Qarşılıqlı münasibətlərdə, eləcə də işgüzar sövdələşmələrdə ulduzlar sizə dəstək verəcək. Böyük uğurlarınızın ilkin qığılcımları məhz bu təvimdən etibarən start götürəcək.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu maraqlı gündə savab işlərinizin sayını artırmağa çalışın. Bu, sonrakı proseslərin həllində sizə kömək edəcək. Mövcud problemlərə görə narahat olmağa isə dəyməz.

**ƏQRƏB** - Əksər məsələlərdə gün sizin xeyrinizə işləyəcək. Şəxsi işlərinizdə müsbət rol oynaya biləcək insanlarla da rastlaşacaqsınız. Unutmayın ki, hazırda uğurlarınıza gedən yolun astanasındasınız.

**OXATAN** - Sevgi məsələlərinə mülayim yanaşın. Bu, həm mövcud olan əsəbiliyinizi azaldar, həm də işlərinizin yaxşılaşmasına təkan verə bilər. Qohumluq münasibətlərinə xüsusi fikir verin.

**OĞLAQ** - Hər mənada uğurlu təqvimdir. Öz gücünüzə etibar edin. Çünki Göy qübbəsi sizə elə bir enerji verəcək ki, bütün maneələri dəf edə biləcəksiniz. Axşamsa sürprizlər gözlənilir.

**SUTÖKƏN** - Günün birinci yarısında nəzərdə tutduğunuz perspektivlərin müəyyən hissəsini həll edə biləcəksiniz. Nahardan sonra isə yalnız neytral mövqe tutmalı, riskdən uzaq olmalısınız.

**BALIQLAR** - Elektrik və digər avadanlıqlarla ehtiyatlı davranın ki, xəsarət almayasınız. Digər sahələrdə elə bir çətinliyiniz olmayacaq. Axşam saatlarını ürəyinizə yaxın dostlarla gəzintiyə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu sərgidə manekenlər çimir




**İngiltərədə açılan bir sərgi orijinallığı ilə diqqət çəkir. Ziyarətçilər divarlarda açılan deşiklərdən çimən manekenləri canlı olaraq izləyir. Mükafat almış sənətçi Mark Vallinger imzalı sərgi 16-cı əsrdə yaşamış məşhur rəssam Titianın tablolarından təsirlənib. "Diana" adlı yeni layihəsi üçün Tvitter vasitəsilə elan verdiyini və 6 manekeni işə aldığını deyən Vallinger modellərin 2 saatdan bir yer dəyişdirdiyini söyləyib. Modellərin hamısına layihədə eyni ad verilib: "Yunan mifologiyasından gələn tanrı Diana əfsanəsində yer alan hamam səhnəsini günümüzə uyğunlaşdırmaq istədim və ortaya belə bir iş çıxdı".**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100